# ALLAH QORXUSU

Ey iman gətirənlər, Allahdan qorxun. Hər kəs sabahı üçün nəyi təqdim etdiyinə baxsın. Allahdan qorxun. Heç şübhəsiz Allah, etdiklərinizdən xəbərdardır.
(Həşr surəsi, 18)

ADNAN OKTAR - HARUN YƏHYA

# MÜNDƏRİCAT


Giriş

Oxucuya

Yazıçı və əsərləri haqqında

Allah Quranda Ondan qorxmağı əmr edir

Quranda təsvir edilən Allah qorxusu

Möminlər Allahdan nə üçün qorxarlar?

Allahdan qorxan bir insan necə bir əxlaqa sahibdir?

Allah qorxusunun möminlərə qazandırdığı xüsusiyyətlər

Allahdan qorxanların görəcəkləri gözəl qarşılıq

Allah qorxusundakı əksikliyin səbəbləri

Allahdan qorxmayan insan necə bir əxlaqa sahibdir?

Allahdan qorxmayanların gördükləri qarşılıq

Son söz

Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur,  İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd  tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində

ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Hal-hazırda içində olduğunuz otaqda tək deyilsiniz. Onsuz da özünüzü ən tək sandığınız zamanlarda belə siz heç bir zaman tək olmadınız. Allahın vəzifələndirdiyi yazıçı mələklər davamlı sizi izləyirlər. Ağzınızdan bir söz çıxmasın, dərhal yazırlar. Hər addımınızı, hər düşüncənizi, hər etdiyinizi, etməniz lazım olub da sonraya saxladığınızı, hamısını əskiksiz yazırlar. Kiçik-böyük heç bir şeyi ayırd etmirlər. Siz yatırsınız, onlar yenə yanınızdadırlar. Unutmaları ya da yanılmaları mümkün deyil, özlərinə buyrulanları qüsursuzca edirlər.

Digər tərəfdən sizə vəkil qılınan ölüm mələkləri də gözləyirlər. Nəyi? Sizə verilmiş olan müddətin dolmasını. Sizin üçün təyin edilən əcəl gəldiyində canınızı onlar təslim alacaqlar.

Bu arada, heç nəzərə almadığınız, hətta bəlkə də ağlınızdan belə keçirmədiyiniz gizli şahidləriniz də var: Əlləriniz, dəriniz, eşitmə və görmə duyğularınız. Hesab günü gəlib, bütün şahidlər bir yerə toplandığında Allahın diləməsiylə onlar da danışacaqlar. Əgər Allahdan qorxub çəkinənlərdən deyilsinizsə, sizin əleyhinizə şahidlik edəcəklər. Qısacası, böyük bir fövqəladəlikdən bəhs edilir, amma bütün bunlar böyük bir səssizlik içində davam edib gedir. Məhz dünyadaykən sizi bir an olsun tək buraxmayan bu kimi şahidlərin hamısı, hesab günü sizin üçün şahidlik etmək üzrə bir yerə gələcəklər. İnsan Allaha qul olsun deyə yaradılmışdır və imtahan edilir. Çox deyil, orta hesabla 60 il kimi bir müddət dünyada qalacaq və sonra Allahın hüzurunda həyatının hər anından hesaba çəkiləcək. Hər kəsin öz qazandıqlarını öyrənməsinin, yəni şahidlərin dindirilməsinin və kitabının əlinə verilməsinin ardından, sonsuz həyatı üçün Allah hökm verəcəkdir. Əgər kitabı sağ yanından verilsə, artıq o adam əbədi olaraq xilas olmuşdur. Amma kitabı sol yanından verilənlər isə o zaman belə deyəcək:

**…"Kaş ki, kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ki, ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni əzabdan qurtarmadı. Hökmranlığım da məhv olub getdi". (Haqqə surəsi, 25-29)**

Artıq bundan sonra tutularaq, üzüstə süründürülərək bir daha heç çıxmamaq üzrə cəhənnəmə aparılacaqdır.

İnsanın bu pis sonluğa düşməsinin ardındakı səbəb, etdiklərinin hər an yazıldığını, bunların bir gün özünə bildiriləcəyini və hesab verəcəyini ümid etmədiyi üçün, Allahdan və Onun təhdidindən qorxub çəkinmədən həyatını bitirməsidir. Bu insan, axirətə, haqq-hesab gününə və cəhənnəm kimi dəhşət verici bir əbədi cəza yerinə qəti bir şəkildə iman etmədiyi üçün, etdiyi pis işlərdən ötəri qorxub çəkinməz və Allahın sərhədlərini tapdalamaqda bir qorxu görməz. Məhz Allah qorxusu, bir insan üçün həm imanının çox iti

bir göstəricisi, həm də onun əbədi həyatını təyin edən çox əhəmiyyətli bir xüsusiyyətdir. İnsan, ancaq və ancaq Allahdan qorxub çəkinsə qurtulacaqdır.Hesab günü yaşanacaq hadisələri düşünərək qorxuya qapılmamaq isə mümkün deyil. Lakin bu qorxu yalnız iman edənlərə xas bir qorxudur. Çünki Allahın bir çox ayəsində təsvir etdiyi imtahan mühitinin, yazıçı mələklərin, şahidlərin və hər kəsin bir yerə gətirilib toplanacağı hesab gününün qəti bir həqiqət olduğuna ancaq möminlər qeyd-şərtsiz inanırlar və pis bir sonla qarşılaşmaqdan qorxurlar.

Sizin də etdiyiniz hər şey, anbaan qeydə alınır; bunları oxuduğunuz an da buna daxildir. Sürətlə Allaha hesab verəcəyiniz günə doğru gedirsiniz. Gəlin siz də Allahdan qorxun və Allahın məmnuniyyətini qazananlardan olun:

... **Özünüzlə azuqə götürün! Ən yaxşı azuqə isə təqvadır. Məndən qorxun, ey ağıl sahibləri!. (Bəqərə surəsi, 197)**

**Allah Quranda Ondan qorxmağı əmr edir**

Hər şeydən əvvəl yaxşı bilinməlidir ki, Allah qorxusu bəzi cahil insanların sandıqları kimi, yalnız peyğəmbərlərə, ya da övliyalara xas xüsusi bir üstünlük deyil, bütün iman edənlərin ürəklərində daşıdıqları və digər bütün insanların da daşımaları lazım olan bir duyğudur. Çünki Allah Quranda Özündən qorxmağını əmr etmişdir:

**Ey iman gətirənlər, Allahdan qorxun. Hər kəs sabah üçün nəyi təqdim etdiyinə baxsın. Allahdan qorxun. Heç şübhəsiz Allah, etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

Allah qorxusu bəzi kəslərin düşündüyü kimi bir qorxu da deyil. Allah qorxusu, Allahı çox sevən, Ona könüldən təslim olmuş, Allahdan başqa dost və vəkil qəbul etməyən möminlərin, Allahın razı olmayacağı bir rəftar göstərməkdən, Allahın məmnun olmayacağı bir əxlaq üzərində olmaqdan şiddətlə çəkinməsi, var gücü ilə Allahın rəhmətini və razılığını istəməsi və bunun üçün cəhd göstərməsidir. Bütün insanları Allah yaratmışdır və onları özlərini bilib tanıdıqlarından daha yaxşı bilib tanıyır. Hər kəsin ürəklərində gizli olanı, gizlinin də gizlisini bilir. Nəfsinin insana nə cür vəsvəsələr verdiyindən, nə cür oyunlar oynayacağından da çox yaxşı xəbərdardır. Çünki nəfsi yaradan, ona imtahan üçün sərhəd tanımaz pislikləri və bundan çəkinməyi ilham edən Allahdır. Şeytanı da imtahan mühitinin bir parçası olaraq yaratmış və ona bu məqsəd istiqamətində bəzi xüsusiyyətlər vermişdir.

Allah qorxusu isə bu imtahan mühitində möminin ən böyük dayağı olacaq. Çünki Allah qorxusu adamı hər an Allahın istədiyi kimi davranmağa, Onu razı salmağa çalışmaya, şeytanın və nəfsinin istəklərindən çəkinməyə, onların hiylə və oyunlarına qarşı oyanıq və tədbirli olmağa sövq edəcək. Bu da, insana öz sərhəd tanımaz istəklərinə əməl etməyə çalışan nəfsin və şeytanın heç xoşuna gəlməyən bir vəziyyətdir.

Bu səbəblə, şeytan və nəfsi, insanı ən başda Allah qorxusundan uzaqlaşdırmağa çalışar. Allahdan qorxmağın gərəksiz, hətta səhv olduğu, əsl əhəmiyyətli olanın Allah sevgisi və ürək təmizliyi olduğu kimi batil təlqinlərlə onun Allahdan qorxub çəkinməsini maneə törətmək istəyər. Halbuki, Quranı oxuyan şüurlu bir insan, şeytanın bu cür təlqinlərinin heç bir həqiqəti olmadığını, tamamilə azdırmaq və aldatmaq məqsədi daşıdığını rahatlıqla görər. Çünki Allah, möminlərə Özündən qorxmalarını Quranda son dərəcə açıq bir şəkildə əmr etmişdir. Bu ayələrdən bir neçə nümunə belədir:

**... Allahdan qorxun və bilin ki, Allah, şübhəsiz şiddətli cəza verəndir. (Bəqərə surəsi, 196)**

**... Allahdan qorxun və bilin ki, siz Onun hüzuruna toplanacaqsınız. (Bəqərə surəsi, 203)**

**... Allahdan qorxun və bilin ki, Allah hər şeyi biləndir. (Bəqərə surəsi, 231)**

**... Allahdan qorxun və bilin ki, Allah nə etdiklərinizi görəndir. (Bəqərə surəsi, 233)**

**Ey iman gətirənlər, Allahdan qorxun və (sizi) Ona (yaxınlaşdıracaq) vəsilə axtarın; Onun yolunda cəhd edin (səy göstərin), bəlkə nicat tapasınız. (Maidə surəsi, 35)**

Mömin hər mövzuda olduğu kimi Allahın bu əmrini də qeyd-şərtsiz yerinə yetirməyə çalışır. Qurandan xəbərsiz cahil kəslər kimi, Allahdan qorxmağın lazım olub-olmadığı, Allah qorxusunun yoxsa Allah sevgisinin əhəmiyyətli olduğu, Allahı sevən bir kimsənin nə səbəbə Allahdan qorxması lazım olacağı kimi, şeytani şübhə və vəsvəsələrə qapılmaz. Allahdan qorxmağın, eynilə 5 vaxt namaz qılmaq, oruc tutmaq kimi "fərz qılınmış" bir ibadət olduğunu bilir və bu ibadəti ən gözəl şəkildə yerinə yetirməyə çalışır. Bununla birlikdə, Allah Quranda insanın nə səbəbə Özündən qorxması lazım olduğunun hikmətlərini də təfərrüatlı olaraq açıqlamışdır.

Peyğəmbərimiz (s.ə.v.) də bir hədisində Allah qorxusuyla əlaqədar olaraq belə buyurmuşdur:

*Rəbbim mənə doqquz şey əmr etdi: Gizli halda da, aşkar halda da Allahdan qorxmağımı, qəzəbli və razılıq halında da ədalətli söz söyləməyimi, yoxsulluqda da, zənginlikdə də mövqeyimi saxlamağımı, məndən qopana da sıla - ı rəhm (dostluq) etməyimi, məni məhrum edənə də verməyimi, mənə zülm edəni bağışlamağımı, susmağımın təfəkkür olmasını, danışığımın zikr olmasını, baxışımın ibrət olmasını, marufu (doğru və gözəl olan) əmr etməyimi. (Kütüb-i Sitte, Muhtasarı Tərcümə və Şərhi, Prof. Dr. İbrahim Canan, 16-ci cild, Akçağ nəşirləri, Ankara, s. 317)*

# ALLAH QORXUSU NECƏ OLMALIDIR?

**ADNAN OKTARIN EKİN TV-DƏKİ CANLI REPORTAJI, 2 mart 2009**

ADNAN OKTAR: Allahdan qorxmaq demək, dəli aşiqin qorxusu, yəni Allahı hirsləndirməkdən çəkinmək, Allahın razılığından məhrum qalmaqdan qorxmaq. Aşiq sevdiyini hirsləndirməkdən çəkinər, onun sevgisinin yox olmasından çəkinər, budur Allah qorxusu. Yoxsa başqa bir mənası yoxdur. Məsələn, cəhənnəmə gedər, atəşdə yanar, amma əslində onu narahat edən Allah eşqini ifadə edə bilməməsidir, Allaha. Yəni aşiqin ehtiyacını Allah aşiqə belə bildirir. Allahdan qorxsa insan Allahın əmrlərinə çox diqqətlə yanaşar, Onu çox sevər, hörmət edər. Məsələn, eqoist olmaz, təkəbbürlü olmaz, şəfqətli olar, qoruyucu olar, nəfsinə düşkün olmaz, mənfəətlərinin arxasında olmaz, bağışlayıcı olar, Allahdan qorxub bağışlayıcı olar. Məsələn, bağışlamaq, sevgini davam etdirən bir gücdür. Məsələn, mərhəmət, sevgini davam etdirən bir gücdür. Məsələn, qoruyub müdafiə edərsən, yeməyinə, içməyinə diqqət yetirərsən, idmanına diqqət yetirərsən sevdiyinin, Allah rizası üçün. Bu məhz o Allah eşqinin bir təcəllisi olar. Yoxsa onlar Allahdan qorxmazsa insan eqoist, təkəbbürlü olar, sırf özünü düşünər, bağışlamaz, mənfəətləri kəsişdiyində sərt davrana bilər. Məsələn, şübhə edəndir, fədakar deyil, comərd olmaz, lazım olduğunda Allah üçün canını ortaya qoya bilməz. Bir çox mənfi neqativ hərəkət üzərinə yığılmış olar. Amma Allah qorxusu olanda hər şey ona gözəl görünər, yəni sevgini təmin edən, gözəlliyi təmin edən hər cür gözəllik Allah qorxusunun üstünə tam mənasıyla oturmuş olar.

**ADNAN OKTARIN ÇAY TV-DƏKİ CANLI REPORTAJI, 18 mart 2009**

ADNAN OKTAR: Səmimi müsəlman Allahdan qorxar, Allaha qarşı nəzakətdə qüsur etməz. Son dərəcə hörmətli bir üslubla danışar. Biz hər an ölə biləcək, Allahın təcəllisi olan varlıqlarıq və bu qədər balaca yerdə Allah bizi danışdırır və bizə görüntü göstərir... Əgər insan çox imanlıdırsa, Allahdan çox qorxarsa o sevincdən yuxu da gəlməz insana. Yəni içi-içinə sığmaz, cənnət sevinci, İslamın dünyaya hakimi olacağı sevinci, vəli insanların sözlərinin doğru çıxdığını görmə sevinci, gözəl əxlaqın sevinci, sevinclər o qədər çox ki, Allahın verdiyi nemətlərin sevinci... Amma hamısından üstün Allahın varlığının sevinci vardır, yəni sonsuz bir gücün idarəsindəyik. Nə böyük nemətdir əlhəmdülillah. Bunun sevinclərini yaşasınlar, əlbəttə, bunun nəticəsi olaraq insanda bir dirilik və canlılıq olar,

amma hədəf bu olmaz. Biz belə bir gözəlliyi etdiyimiz üçün Allah bunu nemət olaraq verir inşaAllah.

**Quranda təsvir edilən Allah qorxusu**

**Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün! (Ali İmran surəsi, 102)**

Ayədə bildirilən "Allahdan necə qorxub çəkinmək lazım olduğu" Quranda son dərəcə açıq və təfərrüatlı bir şəkildə təsvir edilmiş bir mövzudur. Qorxunun nə şəkildə, necə bir ruh halında və nə şiddətdə olması lazım olduğu da Allahın ayələrində bir-bir izah edilmişdir. Onsuz da Quranın endirilmə məqsədlərinin ən əhəmiyyətlilərindən biri də budur:

**Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 52)**

İndi Allah qorxusunun necə olması lazım olduğunu yenə Quran ayələrindən görək.

**Allah qorxusu necə artırılar?**

**ADNAN OKTARIN DENGE TV-dəki REPORTAJI, 9 dekabr 2009**

ADNAN OKTAR:... Allah qorxusu öz-özünə inkişaf etməz, bunun səbəbləri vardır, məsələn, comərd olmaq, kasıblara kömək etmək, bu Allah qorxusunu artıran bir şeydir. Kasıbların borcunun vaxtını uzatmaq və yaxud tamamilə silmək, Quranda ifadə olunan bir əxlaq xüsusiyyətidir, yəni borcu tamamilə bağışlamaq. Əgər bunlar edilsə, iman həqiqətlərinə geniş yer verilsə, Quran oxunsa, Quranın dərinlikləri yaxşı qavranılsa, təvəkkül də insanlarda inkişaf edəcək. **Təvəkkül bərəkət gətirər, rahatlıq gətirər**,

məsələn, ağaclar təvəkkül edər, Allah onlara olduğu yerdə yeməklərini verər. Amma məsələn, canavarlar, tülkülər təvəkkülsüzdür, həmişə ac gəzərlər diqqət etsəniz dağlarda, yəni günlərlə ac gəzdikləri olar həris olduqları üçün. İnsana təvəkkülsüzlük yaraşmaz, Allaha tam təslim olub ruzisinin Allahdan olduğunu bilərək bu çaxnaşmanı, bu narahatlığı tamamilə qəlblərindən atmaları lazımdır.

**ADNAN OKTARIN ÇAY TV-dəki CANLI REPORTAJI, 19 yanvar 2009**

ADNAN OKTAR: İnsan, düşünməyə qərar verdiyində yenə Allahın verdiyi o böyük neməti istifadə edəcək, səmimiyyətini və vicdanını istifadə edəcək. Səmimi olaraq düşünüldüyündə, məsələn, bir hüceyrənin quruluşu və yaxud bir ağcaqanadın həyatı, ağıllı düşünüldüyündə heyrətvericidir, çox həyəcan verəcək bir quruluş ortaya çıxar. Hüceyrəni araşdırdığımızda yenə o cür heyrətdən donarıq. Sanki bir şəhər kimidir insan hüceyrəsi. İstanbul şəhərini xatırladır. Elə bir quruluşu vardır. Biz bundan heyrətə düşərik. Heyrətə düşüncə Allaha sevgimiz daha artar. Allahdan qorxumuz daha artar. Allahdan qorxumuz artınca da Allahın göstərdiyi yola, yəni İslama həssaslığımz daha da artar. Və mükəmməl əxlaqlı olarıq.

**Gücünün çatdığı qədər Allahdan qorxmaq**

**Elə isə gücünüz çatdığı qədər Allahdan qorxub - çəkinin, dinləyin və itaət edin... (Təğabun surəsi, 16)**

Allah Quranda insanlara sonsuz qüdrətini, mövqeyinin ucalığını və üstünlüyünü, Özünə qarşı gələnlər üçün hazırladığı əzabın şiddətini və böyüklüyünü təfərrüatlı olaraq izah etmişdir. Artıq bundan sonra insana düşən bu həqiqətləri səmimi olaraq və dərindən təfəkkür etməsi, niyyətində və etdiyi işlərdə həmişə bu həqiqətlərin şüurunda olaraq hərəkət etməsidir. Bunu da ayədə ifadə edildiyi kimi gücünün çatdığı dərəcədə etməyə çalışmalıdır. Yəni gücünün çatdığı qədər Allahın böyüklüyünü təqdir etməli, gücü çatdığı qədər Rəbbimizin təhdid etdiyi əzabın: cəhənnəm əzabının böyüklüyünü, ölçülərini və sonsuzluğunu təfəkkür etməlidir. Bunun nəticəsində ürəyində təbii olaraq Allah qorxusu meydana gələcək. Beləcə, mömin Quranda əmr edilən ibadətləri etməməkdən, haram qılınan şeyləri isə etməkdən gücü çatdığı qədər qorxub çəkinməlidir. Çünki qorxub çəkinməli olduğu şeylər də Quranda özünə təfərrüatlı olaraq bildirilmişdir:

**Beləliklə, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri dönə-dönə açıqladıq ki, bəlkə, onlar pis əməllərindən çəkinsinlər və ya ibrət alsınlar. (Taha surəsi, 113)**

Burada vurğulanması lazım olan çox əhəmiyyətli bir nöqtə daha vardır: Allah qorxusu əldə edilməsi çətin olan, bəzi mərhələlərdən keçərək qazanılacaq bir hiss deyil. Əksinə şüuru açıq, düşünən hər insanın əksi mümkün olmayacaq şəkildə dərindən hiss etdiyi bir duyğudur. Bir insanın həqiqi Allah qorxusunu əldə edə bilməsi üçün tək bir səmimi təfəkkürü belə kafi ola bilər. İnsan yalnız bir an ölümü, ölümdən sonra qarşılaşacaqlarını düşünüb, Allaha qarşı hörmət dolu bir qorxu hiss edə bilər. Bu, tamamilə insanın düşünməsindən və ağlının istifadəsindən asılıdır.

## Qəlbi hörmət ilə titrəyərək qorxmaq

Allah digər dünyəvi qorxularla qarışdırılmaması üçün, Quranda Özündən qorxan bir möminin hisslərini və ruh halını da təsvir etmişdir. Möminin Allah qorxusu başqa heç bir qorxuya bənzəməyən, son dərəcə səmimi və hörmət dolu bir qorxudur. Bu qorxu digər qorxular kimi insana çətinlik və əzab verən bir qorxu növü deyil. Tam tərsinə, insana qulluğunu və acizliyini xatırladan, onun ağlını və şüurunu açıb inkişaf etdirən, insanı çox üstün bir əxlaq səviyyəsinə çatdıran bir qorxudur.

Bu qorxu möminin axirətə olan həsrətini artıran, ümid və şövqünü alovlandıran bir qorxudur. Allah qorxusu, möminin Allaha olan yaxınlığını və sevgisini qat-qat artıran, ona böyük mənəvi həzzlər yaşadan nəcib bir duyğudur. Quranda iman edənlərin daşıdıqları bu səmimi və hörmət dolu qorxudan bir çox ayədə bəhs edilir:

**Həqiqətən, öz Rəbbindən Onu görmədikləri halda qorxanlar üçün bağışlanma və böyük bir mükafat vardır. (Mülk surəsi, 12)**

**Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər. (Rad surəsi, 21)**

**... Mərhəmətli Allahdan Onu görmədən qorxan və Allaha yönəlmiş qəlblə gələn kimsələr üçündür (Qaf surəsi, 33)**

**Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)**

**Ümidlə birlikdə qorxu hiss etmək**

Mömin Allahdan qorxarkən Allahın şəfqətini, mərhəmətini, bağışlayıcılığını, Onun lütf edən, tövbələri qəbul edən olduğunu da xatirindən çıxarmaz. Bu da onun qorxarkən, bir tərəfdən də içində çox şiddətli bir ümid daşımasına səbəb olar. İçindəki Allah qorxusu, Allahın bu sifətlərini də çox dərin və geniş bir şəkildə təfəkkür etməsinə, Allahın üstünlüyünü və böyüklüyünü çox daha yaxşı təqdir edə bilməsinə, bu səbəbdən, Allaha daha çox yaxınlaşmasına vəsilə olar. Allahın mərhəmətinin, şəfqətinin, bağışlamasının böyüklüyünü daha yaxşı dərk edər.

Məhz həqiqi mömin Allaha qorxu və ümid dolu bir ruh halı içində yönələr və dua edər:

**Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər.. (Səcdə surəsi, 16)**

Bu da Allah qorxusunun heç bir zaman ümidsizliyə, pessimizmə salmayan bir duyğu olduğunun göstəricisidir. Möminlərin davamlı ümid etmələrinin lazım olduğu Quranın bir çox yerində ifadə edilmişdir:

**... Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır.. (Əraf surəsi, 56)**

**Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (Zumər surəsi, 53)**

Ümidsizliyin isə inkar edənlərin bir xüsusiyyəti olduğu yenə ayələrdə bildirilmişdir:

**Məhz Mənim mərhəmətimdən ümidlərini kəsənlər Allahın ayələrini və Onunla qarşılaşacaqlarını inkar edənlərdir. Elə onlar üçün ağrılı-acılı bir əzab vardır. (Ənkəbut surəsi, 23)**

**Ey iman gətirənlər! Allahın qəzəbinə gəlmiş adamlarla dostluq etməyin. Kafirlər qəbirdəkilərin bir daha diriləcəyinə inanmadıqları kimi, Axirət gününə də ümid etmirlər. (Mumtəhinə surəsi, 13)**

## Həqiqi dinclik və xoşbəxtliyin qaynağı Allah qorxusu və Allah sevgisidir

**ADNAN OKTARIN KRAL KARADENİZ TV-dəki CANLI REPORTAJI, 16 yanvar 2009**

ADNAN OKTAR: Xoşbəxtlik Allah sevgisiylə, Allah qorxusuyla olar, bunun xaricində qəlblər nicat tapmaz, Allah açıq şəkildə ifadə etmiş, dəqiq ifadə etmiş Allah, şeytandan Allaha sığınıram "qəlblər ancaq Allahı zikr etməklə nicat tapar" deyir. Başqa cür mümkün deyil insanın xoşbəxt olması, qeyri-mümkündür.

## Allah qorxusunun möminlərə qazandırdığı xüsusiyyətləri

**ADNAN OKTARIN KRAL KARADENİZ TV-DƏKİ CANLI REPORTAJI (30 mart 2009)**

ADNAN OKTAR: Bəli, Allah qorxusu gözəl əxlaqla əlaqədar bütün funksiyalarımızı, bütün xüsusiyyətlərimizi istiqamətləndirən ən əhəmiyyətli gücdür. Məsələn, əgər Allah qorxusu olmasa, insan səbrə ehtiyac duymaya bilər. Əziyyətə dözə bilməz. Bağışlayıcı olmaya bilər. Yəni iradəsini bir çox nöqtədə isdifadə edə bilməz. Necə olsa Allah məni bağışlayar deyər, Quranda da bilirsiniz, onsuz da cənnətə gedərəm mən, gedə bilərəm deyər. Amma Allah qorxusu olduqda hər şeyi idarə olunan vəziyyətə gələr. Məsələn, namaza qalxmaya bilər, oruc tutmaya bilər, sevdikləri üçün bir fədakarlıq etməyə bilər. Bunlar da olmadığında, sevginin təməlidir bunlar, eşqin, ehtirasın əsasıdır, hamısı ortadan qalxar, insan sanki içi boş hala gəlir. Allah qorxusuyla insan böyük ayrıntılar qazanar. Yəni çalışqanlıq qazanar, dürüstlük qazanar. Məsələn, Allah qorxusuyla insan doğru söyləyər. Allahdan qorxmazsa mənfəəti üçün çox rahat yalan söyləyə bilər.

APARICI: İndiki vaxtda olur onsuz da.

ADNAN OKTAR: Təbii, dürüst olmanın mənşəyində Allah qorxusu var. Allahdan qorxduğu üçün doğru danışar. Məsələn, şahidliyi doğru edər. Yəni bir çox fitnəni, fücuru, qarışıqlığı, insanın ruhundakı anarxiyanı Allah qorxusu önləyər. Cənnətdən daha çox zövq almağımıza vəsilə olar. Yoxsa, başqa cür insanda bir tutqunluq, durğunluq meydana gəlir.

## Möminlər Allahdan nə üçün qorxarlar?

Möminlərin Allahdan qorxma səbəblərinə keçmədən əvvəl, əvvəlki səhifələrdə də vurğuladığımız bir nöqtəni təkrar xatırlatmaqda fayda görürük. Allah qorxusu, möminin imanını, şövqünü, Allaha olan sevgi və hörmətini coşduran bir duyğudur. İnsanı Allahın razı olmayacağı bir rəftar göstərməkdən çəkindirən, nəfsinin azğınlığını, sərhəd tanımaz günahlarının məhdudlaşdırılmasını, davamlı yaxşılıq istiqamətində hərəkətə keçirən bir qorxudur.

Bu qorxu onu Allahın əzabından uzaqlaşdıran, Allahın razılığına, rəhmətinə və cənnətinə yaxınlaşdıran, bundan ötəri də çox böyük bir mənəvi həzz ehtiva edən bir qorxudur. Mömini Allahın sərhədlərini qorumaqda, Allahın razılığını axtarmasında son dərəcə yüksək bir şüura, oyanıqlığa və tələbkarlığa yönəldər. Nəticədə, möminin dünyadakı bu qorxusu, onu qiyamət gününün qorxusundan və cəhənnəmdəki əbədi qorxu və dəhşətdən qurtaracaq. Bir ayədə belə buyurulur:

... **Artıq bunların Rəbbi yanında mükafatları vardır, onlara qorxu yoxdur və onlar qəmli olmayacaqlar. (Bəqərə surəsi, 274)**

Allahın təhdidindən və əzabından qorxan möminlər, Onun əmr və hökmlərinə son dərəcə dəqiqliklə əməl etdikləri üçün, Allahın bəyəndiyi üstün bir əxlaqa sahib olarlar. Təvazökar, xoş xasiyyətli, incə düşüncəli, fədakar, ağlı və şüuru açıq, Allahın yaratmasındakı üstünlükləri ən gözəl şəkildə təqdir edə bilən, yüksək şüura və böyük bir həssaslığa sahib ideal bir quruluş inkişaf etdirərlər. Qısacası, Allah qorxusu möminləri ruhən zənginləşdirən, onları cənnətə layiq bir həssaslığa qovuşduran, son dərəcə incə hikmətlərlə təchiz edən nəcib duyğudur; əbədi mükafat və xoşbəxtliyin açarıdır.

**Allahın uca məqamından qorxarlar**

Allahı, Quranda tanıdıldığı kimi tanıyan və səmimi olaraq Onun sifətləri haqqında düşünən bir mömin əvvəl Allahın şəxsən Özündən, üstün və şərəfli mövqeyindən içi ürpərək qorxmağa başlayar. Allahın heybət və əzəmətindən, sonsuz qüdrət və üstünlüyündən ötəri, Onun zatına qarşı son dərəcə hörmət və heyranlıq dolu bir qorxu bəsləyər. Bu qorxu, Allahın üstün və uca məqamının şüurunda olan möminin ürəyində təbii olaraq meydana gələn bir qorxudur. Bu qorxunun dərəcəsi adamın imanının və təfəkkürünün dərinliyi dərəcəsində artar. Bu hörmət dolu qorxu Quranda "haşyet" olaraq da tanınır.

Allah sonsuz güc sahibidir, sonsuz bir elmə və sonsuz bir ağıla malikdir, dilədiyini dilədiyi kimi edər; Özü etdiyindən soruşulmaz, lakin O, insanları etdiklərindən sorğuya çəkəcəkdir. Rəbbimiz aləmlərdən müstağnidir, heç kimə ehtiyacı yoxdur, lakin bütün varlıqlar Ona möhtacdır. Hər kəsi və hər şeyi yoxdan var edən və hər an varlıqda tutan Allahdır; hər şeyin və hər kəsin sahibi Odur, dilərsə hər kəsi yox edib yerinə başqalarını yarada bilər. Heç bir şeyi unutmaz; Allah bir şeyi dilədisə ona "Ol" deyər və olar, Ona heç bir şey çətin gəlməz. Bütün bu sonsuz üstünlüklərin sahibi olan Allaha qarşı nəinki üsyankar bir rəftar almaq, hətta Onu unudaraq bir an keçirmək belə şüurlu bir insanın cəsarət edə biləcəyi bir şey deyil.

Allahı Quranda tanıdıldığı kimi tanıyan və Onun qüdrətini gərəyi kimi təqdir edən bir insan Allahdan hörmətlə çəkinər və Onun əzəmətindən qorxuya qapılar. Mömin Allahın böyüklüyünü, əzəmətini, qüdrətini bildiyi kimi "İntiqam alan", "Qəhr edən", "Əzab verən", "Zillətə düşürən" sifətlərini də bilir. Allahın razılığına əks olan bir rəftar, ya da danışığın qarşılıqsız qalmayacağını bilir. Allahın hər an hər şeydən xəbərdar olduğunu, hər yeri qucaqlayıb əhatə etdiyini, özünə şah damarından yaxın olduğunu bilərək hərəkət edər.

Məhz Allah möminin bu gözəl rəftarına qarşılıq onu dünyada və axirətdə əbədi olaraq rəhməti, razılığı və cənnətiylə mükafatlandırar:

**Rəbbinin hüzurunda durmaqdan qorxanları iki Cənnət bağı gözləyir. (Rəhman surəsi, 46)**

Əlbəttə ki, Allahı haqqıyla təqdir edə bilmək üçün Quran ayələrini çox yaxşı bilmək lazım olduğu kimi, Onun xarici dünyadakı ayələrini: dəlillərini də yaxşı bilib tanımaq şərtdir. Ən kiçik bir atomdan, ya da bir canlı hüceyrəsindən nəhəng ulduzlara hətta qalaktikalara qədər Allahın saysız yaradılış dəlilləri haqqında ətraflı məlumat sahibi olmaq insanın Allah qorxusunu artırar. Çünki bunları bilmək insanın, Allahın yaratdığı şeylərdə təcəlli edən sonsuz ağlına, gücünə, elminə çox daha yaxından şahid olmasını, Allahın qüdrətini, digər insanlara görə, daha çox təqdir edə bilməsini təmin edər. Bu da Ona qarşı

duyduğu qorxu və haşyetin qat-qat artmasına vəsilə olar. Məhz Allah bu sirri bir ayəsində belə açıqlayır:

... **Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah Qüdrətlidir, Bağışlayandır. (Fatir surəsi, 28)**

**Allahın təhdidindən qorxarlar**

Allah bir ayəsində möminin, Öz mövqeyindən qorxduğu kimi, təhdidindən də qorxduğunu bildirir:

.

.. **və onlardan sonra sizi o yerdə sakin edəcəyik. Bu, hüzurumda durmaqdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir". (İbrahim surəsi, 14)**

Allahın təhdidi, Rəbbimizə iman və itaət etməyən, Onun razılığını güdməyən, əmr və qadağanlarını tanımayanlar üçün vəd etdiyi fiziki, mənəvi sonsuz bir əzabdır. Bunun yeri də cəhənnəmdir. Mömin, bu dünyada heç kimin Allahın əzabından əmin ola bilməyəcəyini çox yaxşı bilir. Buna görə Allahın, inkarçılara vəd etdiyi cəhənnəmdəki dözülməz və sonsuz əzaba düşməkdən qorxar. Möminlərin bu ruh halı Quranda belə təsvir edilir:

**O kəslər ki, Haqq-hesab gününü təsdiq edirlər. O kəslər ki, Rəbbinin əzabından qorxurlar. Axı Rəbbinin əzabı onlar üçün də təhlükəsiz deyil. (Məaric surəsi, 26-28)**

Allahdan içləri titrəyərək qorxan möminlər, Quranı oxuyarkən cəhənnəmlə əlaqədar ayələrin hamısını tək-tək öz nəfsləri üzərində düşünürlər. Çünki Quran ayələrində, Allahın davamlı möminlərə xitab edən xəbərdar edib qorxutması yer alır; inkarçılar isə onsuz da Allahın kitabını oxumazlar, oxusalar da gərəyi kimi qavraya bilməzlər. Bu səbəbdən, möminlər, bu ayələrin Allahın mömin qullarını xəbərdar etmək və onları cəhənnəmdən çəkindirmək üçün olduğunu düşünürlər. Çünki, Qurandan öyüd ala biləcək və Allahın əzabından qorxub çəkinə biləcək yalnız özləridir. Bundan ötəri də digər insanları deyil, Quranda təriflənən təqva sahibi möminləri və üstün əxlaq sahibi peyğəmbərləri özlərinə nümunə götürürlər. Məhz bunun təbii bir nəticəsi olaraq "cəhənnəm ayələri digər insanları maraqlandırır, mən isə mömin əm" kimi özündən əmin bir ruh halı içinə girməzlər. Əlbəttə, imanlarından ötəri Allahdan daim qurtuluşu və rəhmətini ümid

edərlər. Ancaq bu, "**... Rəbbinə qorxu və ümidlə dua edərlər...**" (Səcdə surəsi, 16) ayəsində diqqət çəkildiyi yenə qorxuyla qarışıq bir ümiddir.

Allah Quranda insanları cəhənnəmdən çəkindirmək üçün bir çox xəbərdarlıq və xatırlatma etmişdir. Bəlkə qorxub çəkinsinlər deyə inkarçıları axirətdə qarşılaşacaqları əzabla təhdid etmişdir. Bu Quranda belə vurğulanır:

**..”. De: “Şübhəsiz ki, ziyan çəkənlər Qiyamət günü özlərini və ailələrini ziyana uğradanlardır. Açıq-aşkar ziyan da elə budur!” Onların üstündə də oddan təbəqələr, altında da oddan təbəqələr olacaqdır. Allah Öz qullarını bununla qorxudur. Ey qullarım! Məndən qorxun! (Zumər surəsi, 15-16)**

Həqiqət budur ki, Allah insanları istər ayələriylə, istər elçiləri vasitəsilə, istərsə də yaşadıqları hadisələrlə Özündən çəkindirir. Onları səsləyir, əzabıyla qorxudur. Amma bu xəbərdarlıqlar "**... Biz onları qorxuduruq, bu isə onlarda ancaq böyük bir azğınlığı daha da artırır.** " (İsra surəsi, 60) ayəsinin bir təcəllisi olaraq inkarda dirənənlərə bir fayda vermədiyi kimi, nifrətini daha da artırar. Və o zaman da yalan hesab etdikləri əzab haqq olar. Allah ayələrdə belə buyurur:

**Vay sənin halına, vay! Yenə də vay sənin halına, vay! Bəlkə insan özbaşına qoyulacağını güman edir? (Qiyamət surəsi, 34-36)**

Dünyada olduqları müddət ərzində Allah qorxusundan uzaq yaşayan və Allahın əzabını yalan hesab edənlər, hesaba çəkildikdən sonra kitablarını sol yanlarından alarlar və bu an artıq haqlarında hökmün verildiyi və sonsuz əzaba məhkum olduqları andır. Dəstə-dəstə cəhənnəmə sürüklənəcəklər. Daha çatmadan başlarına gələcəklərin qorxusu bütün mənliklərini əhatə edər. Psixoloji olaraq tamamilə çökmüş vəziyyətdədirlər. Süründürülərək cəhənnəmin qapısına çatarlar. O anı Allah ayələrində belə bildirir:

**Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açıq olacaq və onun gözətçiləri onlara deyəcəklər: “Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?” Onlar: “Əlbəttə, gəlmişdi!” – deyəcəklər. Lakin əzab Sözü kafirlər barəsində haqq oldu. Onlara: “İçində əbədi qalacağınız Cəhənnəmin qapılarına girin!” – deyiləcək. Təkəbbürlülərin yeri necə də pisdir! (Zumər surəsi, 71-72)**

Bu şəkildə bir daha əsla çıxmamaq üzrə cəhənnəmin qapılarından içəri girərlər. Cəhənnəmin qapıları üzərlərinə bağlanılar və kilidlənər. Heç bir qaçış imkanı yoxdur. Artıq bədənləri və ruhları sonsuza qədər dözülməz ağrılar içində qıvrılacaqdır. Amma gördükləri

əzabların heç biri onları öldürməyəcəkdir. Hər dəfə dəriləri yenilənəcək və onlar işlərinin bitirilməsini istəyəcək, amma özlərinə belə cavab veriləcəkdir:

**Onlar Cəhənnəm gözətçisini çağırıb deyəcəklər: "Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!" O isə: "Siz burada əbədi qalacaqsınız!" – deyəcək. (Zuxruf surəsi, 77)**

Cəhənnəmdəki əzabların fərqli növləri vardır. Bunların hər biri insanın xəyal gücündən kənardır. İnkarçı cəhənnəmin odunu olar (Cin surəsi, 15), atəşin üstündə tutulub şam kimi əriyib, üzü atəşdə o yan-bu yana çevrilir, əlləri bağlı olaraq atəşin dar yerinə atılar, qaynadılar, dağlanar, bu haldaykən dəmirdən qamçılarla qamçılanar, qətrandan paltarlar geyər, atəşdən yataqlara uzadılar, üstünə atəşdən örtülər örtülər, darı tikanı və zəhərli zəqqum yeyər, qan və irin içər, başından aşağı qaynar su tökülər, içirdiləcək qaynar su bağırsaqlarını parça-parça qoparar, atəş üzünü yandırar, dişləri ağarmış halda qalar, nəfəs alıb-verməsi belə qəhr doludur. Bütün bunlar bir daha sona çatmayacaq olan fiziki əzabın yalnız bir hissəsidir.

Cəhənnəm əhli fiziki olduğu kimi psixoloji olaraq da acı çəkər. Çarəsizlik, ümidsizlik, peşmanlıq, alçaldılma, rəzil olma, kiçik düşmə, xorlanma, hirs, kin və çəkişmə duyğularının qarışığı nəticəsində yaşadıqları əzab da bir tərəfdən özlərini yeyib-bitirər. Bu qədər kütlənin arasında hər kəs yalnızdır və bir-birinə düşməndir. Davamlı bir-birlərini lənətləyərlər. Qışqırıqlar, hayqırışlar, yalvarmalar, qəhr dolu inləmələr bir-birinə qarışar.

Ancaq bunu unutmayın: Cəhənnəmdə bu əzabları yaşayanlar başqa varlıqlar deyil. Dünyada küçədən keçərkən gördüyünüz, bir qismini tanıdığınız, bildiyiniz insanlardır. Heç bir şey dəyişməmişdir, hamısı eyni şüur açıqlığında insanlardır. Bəlkə də heç gözləmədikləri bir anda ölüm mələkləri canlarını almış və özlərini etdiklərinin qarşılığını ödəyərkən görmüşlər. Allahın yaratdıqları arasında, Allahın bu böyük təhdidinin şüurunda olub davamlı qorxu və ümid içində yaşayanlar isə yalnız möminlərdir:

**Onlar deyərlər: "Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir. (Furqan surəsi, 65)**

Bununla bərabər Allahdan bir rəhmət olaraq Peyğəmbərimiz (s.ə.v.)-in belə bir hədisi də vardır:

*Hz. Peyğəmbər (s.ə.v.) belə buyurdu: "Ürəyində zərrə qədər iman olan kimsə atəşdən çıxacaq." Əbu Səid deyir ki: "Kim (bu xəbərin ifadə etdiyi həqiqətdən) şübhəyə düşsə bu ayəni oxusun:* ***" Həqiqətən, Allah zərrə qədər haqsızlıq etməz... "*** *(Nisa surəsi, 40) (Tirmizi, Sıfatu Cehennem 10, (2601))*

## Allahın razılığını və sevgisini itirməkdən qorxarlar

Səmimi və dərin bir Allah sevgisinə sahib olan möminlər bu sevgini bəsləyən ən əhəmiyyətli duyğunun yenə səmimi, dərin və hörmət dolu bir qorxu olduğunu çox yaxşı bilirlər. Allah sevgisinin tərifsiz mənəvi həzzini dadan möminlər, Allaha qarşı bir səhv və ya qüsur işləyərək ən çox sevdikləri varlığın sevgisini və razılığını, dostluğunu itirməkdən çox qorxurlar.

Allah qorxusu eyni zamanda Allah sevgisinin də qaynağıdır. Çünki Allah sevgisi ancaq Allaha yaxınlaşmaqla, Allahla dərin və səmimi bir əlaqəyə girməklə reallaşar. Allaha yaxınlaşmaq isə Onun sevgi və razılığını qazanmaqla, yəni Onun sərhədlərini qorumaqla və Onun əmrlərini yerinə yetirməklə mümkündür. Bu isə Allah qorxusu olmadan əldə edilə biləcək bir vəziyyət deyil. Çünki Allahdan qorxmayan bir insanın nəfsi, onu davamlı olaraq Allahın razı olmadığı şeyləri etməyə, razı olacağı şeylərdə isə laqeyd və zəiflik göstərməyə təşviq edər. Buna görə də Allah razılığını qazanmağın yeganə yolu Allah qorxusudur. Bu, Allahın qoyduğu bir qanundur. O halda, Allahdan gərəyi kimi qorxmadan Onun sevgisini və razılığını qazanacağını sanmaq böyük bir cahillik və aldanış olacaq.

Hər şeydən əvvəl Allah Özündən qorxmalarını insanlara əmr etmişdir. Buna görə, Allahın bu əmrini gözardı edib, yalnız Allahı sevməyin kafi olduğunu söyləməyin heç bir məntiqi ola bilməz. Allahdan qorxmadığı halda Onu sevdiyini söyləyən bir kimsə həqiqətdə özünü aldatmaqdan, vicdanını rahatlatmağa çalışmaqdan başqa bir şey etməz. Allah sevgisi dediyi şey, öz primitiv və səthi dünyagörüşüylə başında qurduğu bir sevgi növüdür. Həqiqi Allah sevgisiylə heç bir əlaqəsi yoxdur. Allahı həqiqətən çox sevən bir insan Onun əmrlərinə əməl etmək mövzusunda son dərəcə diqqətli və qərarlı olar. Allah Özündən qorxmağını əmr edər, bunun lazımlı olmadığını müdafiə edən bir insan, ancaq özünü aldada bilər. Həmçinin, bu ağılsız iddianın "oruc, namaz kimi ibadətlərə ehtiyac yoxdur" deməkdən heç bir fərqi yoxdur. Belələri, yalnız Allah qorxusu mövzusunda deyil, Allahın bir çox əmrini yerinə yetirməmək üçün də müxtəlif bəhanələrə müraciət edərlər.

## Allahın dünyada da qarşılıq verə biləcəyini bilirlər

Quranda, Allahın bəzi insanları işlədikləri cinayətlər səbəbiylə cəzalandırmasıyla əlaqədar bir çox nümunə var. Allah özlərinə bir çox fürsət verdiyi halda inkarda müqavimət göstərən insanlar, etdiklərinin qarşılığını daha dünyadaykən almışlar və insanların gözləri qarşısında ibrət olmuşlar.

Bu ibrət, özünə Allah böyük bir mülk və xəzinə verdiyi üçün ərköyünləşən və təkəbbürə qapılan Qarunun hekayəsində xüsusilə vurğulanır. İnsanlar əvvəl güc sahibi sandıqları Qarunun yanında böyük bir heyranlıq duymuşlar, amma sonra Allaha qarşı qorxmadan təkkəbbür göstərdiyinə görə məruz qaldığı sonunu gördükdə həqiqəti anlamışlar. Qarun, azğınlığının qarşılığını kimsənin heç ümid etmədiyi bir zamanda, görünməmiş bir şəkildə almış və insanlara böyük bir ibrət olmuşdur:

**Qarun öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: “Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir”. (Qəsəs surəsi, 79)**

Nəhayət, onu da, malikanəsini da yerin dibinə keçirdik. Beləcə, Allaha qarşı ona yardım edə biləcək bir camaat da yox idi. Və o, öz-özünə kömək edə bilmədi.

**Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: “Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!” (Qəsəs surəsi, 81-82)**

Quranın daxilində bildirilən və Qarun qissəsində də xüsusi olaraq diqqət çəkilən xüsus, Allahın nə qədər görkəmli, güc sahibi birlikləri dünyada əzablandırması və bununla insanlara Allahın əzabından özlərini qoruya bilməyəcəklərini göstərməsidir. Bu həqiqət başqa bir çox ayədə bildirilmişdir:

**Məgər onlar yer üzündə gəzib dolaşaraq özlərindən öncəkilərin aqibətini görmədilərmi? Onlar bunlardan da güclü idilər. Onlar torpağı şumlayır, yer üzünü bunlardan daha çox abadlaşdırırdılar. Elçiləri onlara açıq-aydın möcüzələr gətirirdilər. Onlara Allah zülm etmirdi. Onlar özləri özlərinə zülm etmişdilər.... (Rum surəsi, 9)**

**... Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox var-dövlət yığan kəsləri məhv etmişdir? (Qəsəs surəsi, 78)**

**Biz onlardan əvvəl var-dövlət və zahiri görünüşcə onlardan daha üstün olan neçə-neçə nəsilləri məhv etdik. (Məryəm surəsi, 74)**

Mömini başqa insanlardan fərqli edən şey bütün bunların şüurunda olub Allahdan içi titrəyərək qorxması və çəkinərək hərəkət etməsidir. Bir səhv və ya günah etdiyində

Allahın o anda bunun qarşılığını verməyəcəyindən əmin ola bilməyəcəyi üçün dərhal Allaha yönəlib tövbə edər, Allahdan bağışlanma diləyər və peşmanlığını dilə gətirər.

Mömin, Allahdan çox qorxar, amma bununla birlikdə Allahın sonsuz mərhəmətinə də güvənər. Bu, yalnız axirəti düşünməyin gətirmiş olduğu bir həssaslıqdır.

Allah, Quranda bunun tam tərsini, yəni özlərinə əzabın gəldiyini gördükləri halda heç özlərinə aid etməyən və eyni rəftarlarını davam etdirən insanların vəziyyətindən belə bəhs edər:

**Nəhayət o əzabı vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu bizə yağış yağdıracaq buluddur!" – dedilər. Hud dedi: "Xeyr! Bu sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir! O öz Rəbbinin əmri ilə hər şeyi yerlə yeksan edəcəkdir!" Onlar elə məhv oldular ki, evlərindən başqa heç bir şey görünmədi. Biz günahkar adamları belə cəzalandırırıq. (Əhqaf surəsi, 24-25)**

Nəticə olaraq, Qurana baxdığımızda görürük ki, edilən heç bir pislik və günah -tövbə edilib, imtina edilmədiyi müddətcə- Allahın uca ədalətinin gərəyi olaraq qarşılıqsız qalmır. Amma bu qarşılıq, bəzən dünyada insanlara çatır, bəzən isə hesab günündə ortaya çıxır. Nankorluq edib, etdiklərindən imtina etməyənlər, Allahın özlərinə bir anda verəcəyi əzabından əsla arxayın olmamalıdırlar. Bu vəziyyət Quranda belə bildirilmişdir:

**Allahın sizi quruda yerə batırmayacağına, yaxud üstünüzə daş-kəsəkli tufan göndərməyəcəyinə əminsinizmi? Sonra sizi qoruyan da tapa bilməzsiniz. (Yoxsa sizi bir daha dənizə qaytarıb üstünüzə qasırğa göndərməyəcəyinə və kafir olduğunuza görə dənizdə sizi batırmayacağına əminsiniz? Sonra buna görə Bizdən intiqam alan bir nəfər belə tapa bilməzsiniz. (İsra surəsi, 68-69)**

Bir insan məsuliyyətsiz bir həyat yaşaya bilməz. Çünki insan özbaşına deyil. Allaha qarşı məsuldur. Bunu rədd etsə çox şiddətli bir qarşılıq görər. Bütün güc Allahın əlindəykən belə bir cürət göstərmək, o adamın Allahın qədrini haqqıyla təqdir edə bilməməsindən başqa bir şey deyil. Çünki Allah istəsəydi, o anda adamdan bütün nemətlərini çəkib ala bilər. Allah ayələrində insanlara, əllərindəki hər cür nemətin bir anda alına biləcəyini belə xatırlatmışdır:

**Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın adlandırdığınız adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Yusif surəsi, 40)**

**Əgər istəsəydik, onların gözlərini kor edərdik və onda onlar düz yolla getməyə çalışardılar. Amma necə görə bilərdilər?**

**Əgər istəsəydik, onları yerlərindəcə elə eybəcər hala salardıq ki, nə irəli gedə, nə də geri qayıda bilərdilər. (Yasin surəsi, 66-67)**

Həqiqət budur, insan sahib olduğu hər şeyi, aldığı hər nəfəsi, yaşadığı hər anı Allaha borcludur. Məhz möminlər bu həqiqətlərin fərqində olduqlarından, Allahdan, Allahın sərhədlərini aşmaqdan daimi bir qorxu duyarlar.

**Ölümə hazırlıqsız yaxalanmaqdan qorxarlar**

İnsan ölümlü bir varlıqdır. Ancaq orta hesabla 60 il kimi qısa bir müddət dünyada qalacaq. Bundan sonra isə onun üçün sonsuz bir həyat başlayacaq. Bu sonsuz həyatı, ya nemətlərlə doldurulmuş cənnətlər içində, ya da insanın ruhuna və bədəninə acı vermək üçün xüsusi olaraq yaradılmış bir əzab məkanı olan cəhənnəmin içində yaşayıb keçirəcəkdir. Allah dilədiyi an insanın dünyadakı həyatına son verib, axirətə keçirə bilər. Əmin olun ki, bu keçid bir göz qırpması qədər tez reallaşacaq.

İnsan öləcəyi, imtahanının sona çatacağı və haqqında qəti hökm veriləcəyi vaxtı bilə bilməz. Buna görə, bu an gəldiyində hazırlıqsız yaxalanmaqdan, hesabını verə bilməyəcəyi, laqeyd yanaşdığı, sonraya saxladığı mövzuların olmasından çox qorxub çəkinməsi lazımdır. Çünki ölüm mələkləri gəldiklərində artıq əskiklərini tamamlamaq, edilməsi lazım olan şeyləri düzəltmə kimi bir imkan olmayacaq. O ana qədər etdikləri yanına fayda və ya zərər olaraq qalacaq və bunlardan hesaba çəkilərək haqqında hökm veriləcək. Ölüm geriyə dönüşü olmayan bir həqiqətdir. İnsana, "**öyüd alıb düşünən bir kimsənin öyüd-nəsihət ala biləcəyi qədər**" (Fatir surəsi, 37) müddət verilmişdir. Ölüm gəldiyi anda bu müddət tamamlanmışdır. İnsan nə qədər yalvarıb-yaxarsa da özünə daha bir fürsət verilməz. Allaha qarşı yerinə yetirmədiyi məsuliyyətlərini yerinə yetirməsi üçün əlavə bir müddət verilməz. Allah, belə bir qəflətə və laqeyidsizliyə düşməmələri üçün möminləri belə xəbərdar etmişdir:

**Sizlərdən birinə ölüm gəlib: "Ey Rəbbim! Mənə bir az möhlət ver ki, sədəqə verib əməlisalehlərdən olum!" – deməmişdən əvvəl sizə verdiyim ruzidən xərcləyin. Allah əcəli çatmışlara əsla möhlət verməz. Allah sizin nələr etdiyinizdən xəbərdardır. (Munafiqun surəsi, 10-11)**

İnsan, heç bir zaman özünü və etdiklərini kafi görməməli, ölümün hər an reallaşa biləcəyinin şüurunda olaraq, geri dönüşü olmayan bir sona hazırlıqsız yaxalanmaqdan qorxmalı, hər anını Allahın sərhədlərini ən çox gözləməyə çalışaraq keçirməlidir.

**Ölümü düşünmək Allah qorxusunun artırar**

**ADNAN OKTARIN TEMPO TV-DƏKİ CANLI REPORTAJI, 13 yanvar 2009**

ADNAN OKTAR: Ölüm çox böyük bir nemətdir. İnsanın Allaha qovuşması, cənnətə açılan bir qapıdır, mömin üçün inşaAllah. Və dünya ehtirasını ortadan qaldıran qəti dəlildir. Ölüm insanları əvəzolunmaz tərbiyə edən, əxlaqların nizama salan ən əhəmiyyətli səbəblərin əvvəlində gəlir. Çox təsir edər insana, bütün insanlara çox təsir edər ölüm. Və cəhənnəm qorxusu, yəni Allah qorxusu. Bunlar olduqda insanlar daha müşfiq, mərhəmətli, şəfqətli, daha ağıllı, daha mehriban, daha lətif, daha gözəl xasiyyətli olurlar. Və gözəl əxlaqın mənşəyini meydana gətirir bu zəmin. Ona görə ölümü, Allaha bir yaxınlaşma, cənnətə vəsilə kimi görərik və o istiqamətdə də onu nemət olaraq bilirik inşaAllah.

**Qiyamət günündən qorxarlar**

İman etməkdə olanların Allaha və qiyamət gününə qarşı bəslədikləri qorxu ayədə belə təsvir edilir:

**O müttəqilər ki, öz Rəbbindən Onu görmədikləri halda qorxur və gələcək o Saatdan lərzəyə gəlirlər. (Ənbiya surəsi, 49)**

Bir başqa ayədə də, iman edənlərin haqq-hesab gününə qarşı içlərində daşıdıqları qorxudan belə bəhs edilir:

**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)**

Allah qorxusundan uzaq yaşayan insanların həyatları boyunca gözardı etdikləri, möminlərin isə çəkinərək hərəkət etdikləri hesab anı gəldiyində, insanın dünyada etdikləri bir-bir özünə göstəriləcək. Dünyada olduğu müddət ərzində hər etdiyi, hər niyyəti gözlər önünə səriləcək. Üstəlik, ən kiçik bir ayrıntı belə unudulmadan...

**O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdır (Zəlzələ surəsi, 6-8)**

Məhz o anda, Allahdan qorxub çəkinməkdə məsuliyyətsiz bir ömür sürənlər, başlarına gələcəklərini anlamışlar. Qorxu və peşmanlıqdan ölməyi, yox olmağı istəyərlər. Yaşadıqları dağıntı ayələrdə belə izah edilir:

**Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni əzabdan qurtarmadı. Hökmranlığım da məhv olub getdi". (Haqqə surəsi, 25-29)**

**Kimin kitabı arxa tərəfindən veriləcəksə, o özünə ölüm diləyəcək və alovlu oda atılacaqdır! Sözsüz ki, o, dünyada ikən öz ailəsində sevinc içində idi və elə güman edirdi ki, Rəbbinin hüzuruna qayıtmayacaqdır. Xeyr! Sözsüz ki, Rəbbi onu görürdü. (İnşiqaq surəsi, 10-15)**

Bundan sonra artıq insanın kitabındakı əməlləri Allahın hesab günü üçün hazırladığı həssas tərəzilərlə çəkiləcəkdir. Və zərrə qədər belə haqsızlığa məruz qalmayacaq. Məhz o an insan əgər çəkinənlərdən deyilsə, çəkidə yüngül gələcək və tutulub zəncirə vurularaq aid olduğu yerə göndəriləcəkdir. Kimsə kimsəyə kömək edə bilməyəcəyi kimi insanın özünə də bir faydası olmayacaqdır. Çarəsizliyin ağrısı bütün mənliyini bürüyəcək.

**Kimin tərəziləri yüngül gələrsə, məskəni Haviyə olacaqdır. Sən haradan biləsən ki, o nədir? O, çox qızmar bir oddur! (Qariə surəsi, 8-11)**

Dünyada qorxusuz bir həyat yaşayan insanın Allaha qarşı işlədiyi bütün cinayətlər tək-tək ortaya tökülər. Yalnız etdikləri deyil, ürəyindən keçirdiyi bütün pisliklər də. O an hiss etdiyi utanc tərifsiz bir utancdır. Heç bir şeyi inkar edə bilməz. O, inkar etməyə qalxsa eşitmə, görmə duyğuları və dəriləri Allah dilədiyi üçün dilə gəlib danışar, əleyhinə şahidlik edərlər.

Məhz iman edənlərin hər an şuurlarını açıq saxlayan, onları çəkindirən və dəqiqliklərini artıran qorxu belə bir günün qorxusudur. Bilirlər ki, Allahın, **"O inkar edənlər müsəlman olmalarını arzulayacaqlar"** (Hicr surəsi, 2) ayəsi o gün təcəlli edəcək.

Hal-hazırda da imtahan davam edir və bir az əvvəl yuxarıda təsvir edilən mühitdə tərəziyə gətiriləcək olanlar içinə, bu an yaşadıqlarımız da daxil olacaq. Buna görə insanın dünyada olduğu müddət içində hesabını verə bilməyəcəyi hər şeydən çəkinməsi lazımdır. Onsuz da ağıl sahibi bir insan üçün bunun əksi mümkün deyil. Allah hər yeri və hər şeyi əhatə etmişkən və insana şah damarından daha yaxınkən, vəzifəli mələklər də ən kiçik təfərrüatı belə qeyd edərlərkən insanın müvəqqəti və dəyərsiz dünyəvi mövzularla özünü məşğul etməsi və hesab gününü unutması mümkün olan ən böyük qəflətdir.

İnsan səhər gözünü açdığı andan etibarən Allah özünə yeni bir gün, yeni bir fürsət daha yaratmış deməkdir. İnsan, dərhal Allaha hesab verəcəyi anı xatırlayıb, günə səmimi bir niyyətlə başlamalıdır. Niyyəti isə, Allahın razı olmayacağı və özünün də hesabını verə bilməyəcəyi hər şeydən uzaqlaşıb çəkinərək, hərəkət etmək olmalıdır. Unutmamaq lazımdır ki, o an gəldikdə həbs edilən sonsuz əzaba göndəriləcək olanlar, "kaş ki" deyəcək olan insanlardır.

**Ey insanlar! Rəbbinizdən qorxun. Valideynin övlada, övladın da valideynə heç bir fayda verə bilməyəcəyi gündən çəkinin. Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu fani dünya sizi çaşdırmasın, hiyləgər şeytan da sizi Allahın əzabından arxayınlaşdırıb tovlamasın. (Loğman surəsi, 33)**

## Allahdan qorxan bir insan necə bir əxlaqa malikdir?

***Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb onlardan ibrət alasınız*. *(Əraf surəsi, 26)***

Quranın bir çox ayəsində Allahdan qorxan möminlərin rəftar və davranışlarından nümunələr verilmişdir. Bu nümunələr əsasında Allahdan qorxan kəslərin sahib olduqları təməl əxlaq xüsusiyyətlərini açıqlayaraq belə maddələrə bölə bilərik:

**Yalnız Allahdan qorxar**

Mömin, **"... onlardan qorxmayın, Məndən qorxun ki, sizə olan nemətimi tamamlayım. Ola bilsin ki, doğru yola yönələsiniz"** (Bəqərə surəsi, 150) ayəsinin hökmü gərəyi, Uca Allahdan başqa heç bir kimsə və ya birlikdən qorxmaz və çəkinməz. Xeyir və zərərin, xeyir və şərin yalnız Allahdan gələ biləcəyinin, başına gələcək bütün hadisələrin ancaq Allahın diləməsi və yaratması ilə, Allahın təyin etdiyi bir qədər üzrə reallaşa biləcəyinin şüurundadır.

Bu xüsusiyyət, Allahın dinini təbliğ edərkən çox vaxt bütün qövmlərini qarşılarına alan, buna baxmayaraq vəzifələrində ən kiçik güzəştə belə getməyən bütün elçilərdə görünər. Allah elçilərini bir ayəsində belə nümunə verir:

**Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)**

Allaha iman edən insan da peyğəmbərlərin bu üstün xüsusiyyətini özünə nümunə götürər və yaşayar.

**Yalnız Allahı məmnun etməyə çalışır**

Mömin, Allahın hər şeyin hakimi olduğunu, yeganə güc və qüvvət sahibi olduğunu, hər şeyin Allahın diləməsi ilə mövcud olub, varlıqlarını davam etdirdiklərini bilir. Buna görə, həqiqətdə heç bir güc və qüvvəyə, təsirə sahib olmayan yaradılmışların razılığını güdməyin faydası olmayacağının şüurundadır. Bu dünyada Allahdan qorxaraq Onun razılığını axtarması, onu, axirətdəki qorxunc əzabdan qurtaracaq:

**Məgər Allahın razılığını qazanmaq üçün gedən kimsə, Allahın qəzəbinə gələn və sığınacaq yeri Cəhənnəm olan bir kimsə ilə bərabər tutula bilərmi? Ora nə pis qayıdış yeridir! (Ali İmran surəsi, 162)**

Kiçik-böyük hər şeyin ortaya töküləcəyi, əllərin və dərilərin şahidlik edəcəyi bir vaxt gələcəkdir. Bundan qorxan mömin həyatını bu həqiqətə görə yaşayar və Allahın rizasından qətiyyən heç bir şərtdə və heç bir halda güzəştə getməz. Hz. Yusifin rəftarı bu mövzuda çox gözəl bir nümunədir. Yusif peyğəmbər onunla birlikdə olmaq istəyən qadının bütün təhdid və intriqalarına baxmayaraq iffətini qorumuş, Allahın razılığından əsla vaz

keçməmiş və Onun sərhədlərini tapdalamaqdansa, zindana girməyi seçmişdir. Allah bu üstün əxlaqı ayələrində belə bildirir:

**Qadın dedi: "Barəsində məni qınadığınız oğlan bax budur! Mən onu yoldan çıxartmağa çalışdım, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır". Yusif dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən mən onlara meyl edər və cahillərdən olaram". (Yusif surəsi, 32-33)**

### Hər zaman vicdanla hərəkət edər

Allaha qulluq edən adam, nəfsinin istək və arzularına itaət etməz. Bilə-bilə belə davrandığı təqdirdə dünyada və axirətdə Allahın qəzəbinə uğramaqdan şiddətlə çəkinər. Əks bir rəftar göstərdiyi təqdirdə aşağıdakı ayələrin hökmünə girəcəyindən qorxar. Allah ayələrində belə buyurur:

**Lakin haqsızlıq edənlər heç bir elmə əsaslanmadan nəfslərinin istəklərinə uydular. Allahın zəlalətə saldıqlarını kim doğru yola yönəldə bilər? Onlara yardım edənlər də olmaz. (Rum surəsi, 29)**

**Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? (Casiyə surəsi, 23)**

### Quranda təsvir edilən bütün gözəl əxlaq xüsusiyyətlərini yaşayar

Allahdan qorxan adam, sədaqət, vəfa, doğruluq, dürüstlük, səmimiyyət kimi bütün gözəl əxlaqa aid rəftarları göstərər. Quranın bir çox yerində bu üstün əxlaq xüsusiyyətlərini sərgiləyən möminlərdən bəhs edilir. Həqiqətdə, bütün insanların həsrətini çəkdiyi insan modeli də budur. Lakin, Allah qorxusu olmadığı təqdirdə bir insanda bu xüsusiyyətlərin həqiqi mənada və davamlı olması əsla mümkün deyil. Çünki Allahdan qorxmayan bir adam öz mənfəətləri ilə zidd düşdüyü zaman Quran əxlaqını deyil, maraqlarının tələb etdiyi davranış formasını mənimsəyəcək. Allahdan, Ona hesab

verməkdən, cəhənnəmə girib pis davranışlarının qarşılığını görməkdən qorxmadığı üçün belə davranmasına maneə törədən bir narahatlığı yoxdur.

### Kimsə görmədiyi zaman da Allahın sərhədlərini qoruyar

Allaha qarşı dərin bir haşyet duyan adam, insanların arasında olduğu zaman da, kimsənin görmədiyi mühitlərdə də Allaha qarşı çıxmaqdan eyni dəqiqliklə çəkinər. Çünki bir pisliyi, istər hər kəsin içində, istər tək başına etsin, istər aşkara vursun, istəsə də gizli saxlasın, Allahın bunu biləcəyini, Allahın açığı da, gizlini də, gizlinin gizlisini də bildiyini və özünü hamısından sorğuya çəkəcəyini bilir. Bu mövzudakı səmimiyyətini Allahın sınayacağını və imtahan qəsdiylə özünə müxtəlif fürsətlər, uyğun mühitlər yaradacağını da bilir. Allah bir ayəsində möminlərə belə əmr etmişdir:

**Günahın aşkarından da, gizlisindən də əl çəkin. Çünki günahı qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar. (Ənam surəsi, 120)**

### Hər vəziyyətdə Allaha yönəlir

Allahdan gərəyi kimi qorxub çəkinən möminlər Allahdan qarşılıq görmə mövzusunda son dərəcə həssasdırlar. Belə ki, özlərinə baş verən bir müsibət qarşısında və ya işlərində bir mənfilik hiss etdiklərində və ya hər hansı bir çətinliklə üzləşdiklərində dərhal bir vicdan mühasibliyi edər, Allahın məmnun olmayacağı bir şey edib-etmədiklərini nəzərdən keçirərlər. Və Allahdan bağışlanma diləyib, Ona dua edərlər. Allahın razılığını qazanmağa olan düşkünlükləri və eyni şəkildə Onun razılığını itirməkdən duyduqları qorxu, onları son dərəcə həssas hala gətirmişdir. Bu mövzuda da hz. Davud peyğəmbərin rəftarı möminlər üçün gözəl bir nümunə təşkil edir. Quranda hz. Davudun Allaha göstərdiyi dərin hörmət bu mübarək Peyğəmbərin yaşadığı bir hadisəni izah edilərək belə xəbər verilir:

**Davudun yanında çəkişənlərin xəbəri sənə gəlib çatdımı? O zaman onlar divarı aşıb məbədə girdilər. Onlar Davudun yanına daxil olduqda Davud onlardan qorxdu. Onlar dedilər: "Qorxma! Biz iki iddiaçıyıq. Birimiz digərinin haqqını tapdalamışdır. Aramızda ədalətlə hökm ver, haqsızlıq etmə və bizə düz yolu göstər! Bu mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu, mənim isə bircə qoyunum vardır. Bununla belə: "Onu mənə ver!" – dedi və mübahisədə mənə üstün gəldi". Davud dedi: "O sənin**

**qoyununu öz qoyunlarına qatmaq istəməklə, sənə qarşı haqsızlıq etmişdir. Həqiqətən, şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onlar isə çox azdırlar!" Bunları dedikdən sonra, Davud Bizim onu sınağa çəkdiyimizi yəqinləşdirərək, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi. Biz bunu ona bağışladıq. Həqiqətən, o Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır. (Sad surəsi, 21-25)**

Ayədən göründüyü kimi, hz. Davud son dərəcə ədalətli bir qərar verdiyi və hökmünün doğruluğu bəlli olduğu halda Allah qorxusu ilə Rəbbimizə yönəlmiş və yenə də bağışlanma diləmişdir. Şübhəsiz, qəlbdə yaşanan bu qorxunun təqlidi mümkün deyil. Bu, ancaq Allahın qədrini haqqıyla təqdir edənlərin Ona olan sevgisindən və hörmətindən ötəri, Rəbbimizin razılığını itirmə qorxusudur.

Bütün peyğəmbərlərin və saleh möminlərin üslublarına baxdığımızda ortaq bir nöqtə diqqətimizi çəkər. Hamısı Allahdan hörmətlə qorxan, əzabından şiddətlə çəkinən qullardır. Lakin bu qorxunun ardında eyni zamanda çox səmimi bir sevgi və dostluq hiss edilir. Daim Allahı təsbih etməyə və ucaltmağa davam etmələri onların Allaha qətiyyətlə bağlandıqlarının bir göstəricisidir.

**Allah qatında üstünlük**

**... Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Əlbəttə ki, bir insanın Allah qatındakı üstünlüyü, Allahı gərəyi kimi təqdir etdiyi, Allahın razı olduğu xeyirli işlərdə olduğu, Quranın hökmlərini yerinə yetirdiyi, Allahın bəyəndiyi əxlaqı üzərində daşıdığı, səmimi və ixlaslı olduğu nisbətdə olacaq. Allaha yaxınlaşdıran bütün bu xüsusiyyətlərə də insan Allahdan qorxub çəkindiyi ölçüdə sahib ola bilər. Məhz bu səbəblə insanın ürəyində daşıdığı Allah qorxusunun dərəcəsi onun Allah qatındakı üstünlük dərəcəsinin də bir göstəricisidir.

**Doğrunu səhvdən ayıran bir nur və anlayış**

**Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Doğrunu səhvdən ayıran bir nur, möminə verilən ağlından istifadə etmə qabiliyyətidir və şübhəsiz, insana dünyada verilə biləcək ən böyük və ən qiymətli nemətlərdəndir. Doğrunu səhvdən ayıra bilən bir ağıla sahib olan insanın hər sözü, hər rəftarı, aldığı hər qərar, verdiyi hər reaksiya düzgündür. Yaxşıyla pisi dərhal ayırd edə bildiyi üçün Allahdan qorxan bir insan, hər işində Allahın razılığına uyğun hərəkət edər. Qərarsızlıq, həll edilməzlik, tərəddüd, vəsvəsə, ağlının qarışması kimi problemləri olmaz. Bunun tam tərsi, yəni insanın belə bir qabiliyyətdən məhrum olması isə dünyada da, axirətdə də adamı həlaka sürüyəcək bir əskiklikdir.

**Allahın Öz mərhəmətindən iki qat verməsi**

**Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə düz yolla getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir. (Hədid surəsi, 28)**

Allah Quranda, Özündən qorxub çəkinərək hərəkət edən qullarını həm dünyada, həm də axirətdə maddi mənəvi nemətlərinin içində yaşadacağını vəd edir. Çünki ayədə xəbər verildiyi kimi, **"Allah onlardan razıdır, onlar da Allahdan razı olmuşlar"**. (Maidə surəsi 120) Bir mömin üçün Allahın onu rəhmətinə alması şübhəsiz hər şeydən üstündür.

Unudulmamalıdır ki, Allah dünyada bir insana gözəlliklər, bolluq, bərəkət, dinclik və təhlükəsizlik duyğusu verə bilər. Axirətdə isə Allahdan qorxan bir insan üçün, dünyadakılarla müqayisə edilə bilməyəcək üstünlükdə nemətlər və Allahın sonsuz rəhməti vardır.

**İbadətlərin qəbulu**

**Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. Qurbanı qəbul olmayan oğlu öz qardaşına demişdi: “Səni hökmən öldürəcəyəm!” Qardaşı da ona belə demişdi: “Allah ancaq müttəqilərdən qurban qəbul edər! (Maidə surəsi, 27)**

Göründüyü kimi hz. Adəmin oğullarından biri "ancaq Allahdan qorxan kəslərin əməllərinin Allah Qatında məqbul" olduğunu söyləyir. Çünki Allah qorxusu olmayan bir kimsə ən əvvəl Allahın qüdrətini gərəyi kimi təqdir edə bilməyən, Allaha qarşı duyulması lazım olan hörməti hiss edə bilməyən bir kimsə deməkdir. Belə bir adam onsuz da təməlində pozuq və səhv bir dünyagörüşünə, Allahın razı olmadığı, bəyənmədiyi bir əxlaq quruluşuna sahib olduğu üçün, etdiyi işlərin də Allah qatında heç bir dəyəri olmaya bilər. Bu səbəblə, Allah, insanın hər şeydən əvvəl Allah qorxusu və rizasının təməlinə əsaslanan bir şəxsiyyət olması lazım olduğunu, əksinə bir quruluşun hüsranla nəticələnəcəyini belə bir örnəklə bildirmişdir:

**Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Digər tərəfdən Allah qorxusu və rizası daşımayan bir kimsənin ibadətləri heç bir zaman lazım olduğu kimi ixlaslı və səmimi ola bilməz. Etdiyi işlərin, ibadətlərin altında göstəriş, təkəbbür, başqalarının razılığını axtarmaq, rəqabət hissi kimi səhv niyyət və

axtarışlar olar. Buna görə həyatı boyunca etdiyi bütün işlər - tövbə edib Allaha yönəlməzsə - boşa getmiş olar.

**İşinlərində asanlıq göstərilməsi**

**... Kim Allahdan qorxsa (Allah) ona işində bir asanlıq göstərər. (Talaq surəsi, 4)**

Allah, Öz razılığını güdən və sərhədlərini qoruyan möminlərə hər an, onlar üzərindəki rəhmətini, qorumasını və dəstəyini hiss etdirər. Etdikləri işlərdə yollarını açar və bir başqa ayənin ifadəsiylə **"asan olanla müvəffəqiyyətli edər"** (Əla surəsi, 8). Bu asanlıq maddi və mənəvi hər mövzu üçün məqbuldur və bəzən açıq, bəzən də gizli olaraq qullarına çatar.

**Allahın çıxış yolu göstərməsi**

**... Kim Allahdan qorxsa, (Allah) ona bir çıxış yolu göstərər. (Talaq surəsi, 2)**

Allahın təqvalı qulları üçün heç bir işdə çarəsizlik, ya da həll edilməzlik kimi mövzuların bəhsi keçə bilməz. Rəbbimizin onlara verdiyi ağıl və anlayış sayəsində hər cür maneəni dəf edə biləcək gücdədirlər. Ən çıxılmaz kimi görünən vəziyyətlərdə belə, Allah özlərinə mütləq bir çıxış göstərər. Və çətinlikləri keçib aradan qaldırana qədər onları içində olduqları vəziyyətdə buraxmaz. Bu Allahın inananlara vədidir.

**Allahın pisliklərini örtməsi, bağışlaması və mükafatlarını artırması**

**Bu, Allahın sizə nazil etdiyi əmridir. Kim Allahdan qorxsa, Allah, günahlarından keçər və onun mükafatını artırar. (Talaq surəsi, 5)**

Ölümlərindən sonra Allahın hüzurunda sorğuya çəkilən möminlər üçün asan bir hesab olacaq. Çünki iman gətirənlər dünyadakı həyatlarını, onları yaradan Rəbbimizin istədiyi şəkildə davam etdirmişlər. Əlbəttə, səhvsiz deyillər, günahları da olmuş ola bilər,

amma sonsuz rəhmət sahibi olan Allah bunları bağışlayacağını ayələrində bildirmişdir. Zumər surəsində belə buyrulur:

**Qullarıma mənim bu sözümü de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (Zumər surəsi, 53)**

Allahın günahlarını bağışladığı kəslər beləcə, dünyada etdiklərinin əcrini daha artıq alacaqları, sonsuz nemətlərlə dolu cənnətə qovuşarlar.

Allahın sonsuz şəfqəti möminlər üzərində dünyada da təcəlli edər. Allah dəqiqliklərinin və Özünə olan bağlılıqlarının qarşılığında bu qullarına, təqdim etdikləri gözəlliklərin, yaxşılıqların və saleh əməllərin mükafatlarını qat-qat artıraraq verər. Bu, Allahın şanındandır. Yoxsa insan özünə can bağışlayan, saysız nemət içində yaşadan Rəbbimizə qarşı onsuz da qulluqla məsuldur. Allahın bunun qarşılığında onları mükafatlandırması də tamamilə lütfündən və qarşılıqsız lütf etməsindəndir.

## Allahdan qorxanların görəcəkləri gözəl qarşılıq

### Dünyadaykən müjdələnmələri

Dünyada Allah qorxusundan uzaq bir həyat sürən insanların, axirətdə sonsuza qədər bənzərsiz qorxular yaşayacaqlarını və hər an Allahın əzəmətini bütün şiddətiylə hiss edə biləcəklərini sonrakı hissələrdə ayələrlə görəcəyik. Allahdan qorxub çəkinənlər də bunun tam tərsinə, axirətdə hər cür qorxudan təhlükəsizliyə qovuşacaqlar və Allahın mühafizəsində və inayətində bir həyat yaşayacaqlar. Bütün həyatları boyunca qiyamət saatından, hesab günündən və cəhənnəmdən içləri titrəyərək qorxan möminlər, o gün gəldiyində hər cür qorxudan uzaq tutulacaqlar və təhlükəsizlikdə olacaqlar. Allah bunun müjdəsini daha dünyadaykən ayələriylə verərkən, o gün gəldiyində də qullarına xitab edəcək və daha neçə-neçə müjdələr verəcək:

**"Ey qullarım! Həmin gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun! Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız.**

**Xeyirxah əməllərinizin nəticəsi kimi varis olduğunuz Cənnət budur. Orada sizin üçün bol-bol meyvələr vardır, onlardan yeyəcəksiniz. (Zuxruf surəsi, 68-73)**

Bir başqa ayəsində isə Allah bu müjdəni mələkləri vasitəsilə ilə verir. Şübhəsiz ki, bu, cənnəti şiddətlə arzulayan möminlər üçün tərifsiz bir sevincdir:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli Allah tərəfindən verilən ziyafət kimi". (Fussilət surəsi, 30-32)**

Ayədə də vurğulandığı kimi, sonsuz gözəlliklərə uzanan bu müjdə mömin daha dünyadaykən ona çatmağa başlayır.

### Gözəl bir həyat

Allah, iman etməyən və Özündən qorxub çəkinməyənlərin əzaba layiq olduqları kimi, dünya həyatındakı bolluq və bərəkətdən də məhrum qaldıqlarını belə xəbər verir:

**Əgər o ölkələrin əhalisi iman gətirib Allahdan qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət qapılarını açardıq. Lakin onlar peyğəmbərləri yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə əzabla yaxaladıq. (Əraf surəsi, 96)**

İman edən və Allahdan qorxub çəkinənlər isə, axirətdə cənnətlə müjdələnildikləri kimi, bu dünyada da Allahın lütf və ehtiramından, nemətlərindən ən gözəl şəkildə təmin edilirlər. Allah ayəsində bunu gözəl bir həyat olaraq xarakterizə etmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Necə inkarçıların əbədi əzabları hələ bu dünyadan başlayırsa, çəkinən möminlər üçün vəd edilən əbədi gözəlliklər də özlərinə dünyada göstərilməyə başlanır. Zənginlik və gözəllik cənnətin ən fundamental xüsusiyyətlərindən olduğundan Allah sevdiyi təqvalı

qullarına cənnətini tanıdar, onların cənnətə olan həsrətlərini və arzularını artıracaq nemətlərin və mühitlərin bənzərlərini bu dünyada da yaradar.

Digər tərəfdən, özünü yaradan Allahın əmr və haramlarına əməl etməsindən, din əxlaqını yaşamasından və ən əhəmiyyətlisi daim Ona güvənməsindən və axirəti üçün ümid bəsləməsindən ötəri mömin, dünyadakı həyatı boyunca hər cür kədər və sıxıntıdan uzaq tutular. Bunun yerinə Allah ürəyinə "dinclik və təhlükəsizlik duyğusu" endirmişdir. Kiçik-böyük etdiyi hər işdə, hər ibadətdə və sərgilədiyi gözəl əxlaqda Allahın özünü gördüyünü, mələklərin bunları əməl dəftərlərinə yazdığını, axirətdə bütün bunların qarşılığını alacağını bilmənin gətirmiş olduğu bir dinclikdir bu.

Ancaq unudulmaması lazım olan bir nöqtə də vardır ki, dünya bir imtahan yeridir. Əlbəttə, mömin də müxtəlif çətinlik və sıxıntılarla qarşılaşa bilər. Ancaq Allahdan qorxan bir mömin hər vəziyyətdə Qurana uyğun ən gözəl rəftarı göstərəcəyindən bu çətinlik və sıxıntıları onun üçün rəhmətə və əcrə çevriləcək. Özünü yalanlayan qövmü tərəfindən alova atılmaq istənildiyi halda, imanından, təslimiyyətindən, təvəkkülündən ən kiçik bir güzəştə getməyən hz. İbrahim (ə.s)-ın vəziyyəti buna çox gözəl nümunədir. Görünüşə görə insan üçün çox böyük bir əzab olan atəş, hz. İbrahim (ə.s)-a "sərin və zərərsiz" qılınmış, ona heç bir zərər və çətinlik verməmişdir. Çətinlik, əzab və bəlanın ancaq insanın öz səhv mövqe və davranışlarının bir qarşılığı olaraq, bir cəza və ya xəbərdarlıq olaraq verildiyi, "**Sizə üz verən hər bir müsibət, (ancaq) öz əllərinizlə qazandığınıza görədir...**" (Şura surəsi, 30) ayəsiylə bildirilmişdir. Yoxsa, Uca Rəbbimiz Allahdan gücü çatdığı qədər qorxan, hər əxlaq və davranışında Allahın razılığını güdən, doğru davranan səmimi bir mömin üçün əzabdan bəhs edilə bilməz.

Dünyada imtahan olaraq qarşısına çıxan çətinliklərin hamısı möminlərin Allaha duyduqları hörməti və qorxunu, cənnətə olan istəklərini daha da artırır. Çünki mömin, bu çətinliklərin həm sınanması və yetkinləşməsi üçün yaradıldığının, həm də gözəl bir əxlaq sərgilədiyi, səbir etdiyi və Allaha güvəndiyi təqdirdə axirətini gözəlləşdirmək üçün əcr fürsəti olduğunun şüurundadır. Necə ki, bütün hadisələrə xeyir gözüylə baxmağın Allahdan çəkinən möminlərin bir xüsusiyyəti olduğunu ayələrdə görərik. Allah bir ayəsində belə buyurur:

**Müttəqilərə: “Allah nə nazil etmişdir?” – deyildikdə, onlar: “Xeyir nazil etmişdir!” – deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! (Nəhl surəsi, 30)**

Dünyada xeyir içində yaşadılan möminin ölümü də gözəl və rahat olacaq, axirət həyatı mələklərin qarşılamasıyla başlayacaq. Bunun davamında isə yenə mömini rahatlıq və asanlıq gözləyir.

**Asan bir hesab**

Möminlər, axirətdə pis hesabla qarşılaşmaqdan qorxduqları üçün həyatları boyunca xeyir işlərdə yarışar, Allahın sərhədlərini dəqiqliklə güdərlər. Möminlərin bu qorxuları ayələrdə belə təsvir edilir:

**Onlar vəd etdikləri naziri verər və dəhşəti hər yeri sarsıdacaq gündən qorxarlar. Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! (İnsan surəsi, 7-9)**

Allahdan və Ona verəcəkləri hesabdan qorxanların Allah axirətdə üzlərini ağardar, onların kitabları sağ yanlarından verilər və qorxduqları hesab özlərinə asanlaşdırılar:

**Artıq kimin kitabı sağ yanından verilsə, o, asan bir haqq-hesab (sorğu) ilə sorğuya çəkiləcək, və öz yaxınlarına sevinc içində dönmüş olacaq. (İnşiqaq surəsi, 7-9)**

Hesaba çəkilmələri bitdiyində artıq möminlər cəhənnəm əzabından xilas olmağın xoşbəxtliyi içindədirlər. Ayədə ifadə edildiyi kimi yaxınlarının yanına sevinc içində dönərlər.

**Sonsuz cənnət həyatı**

**Öz Rəbbindən qorxanları ağacları altından çaylar axan Cənnət bağları gözləyir ki, onlar orada əbədi qalacaqlar. Bu, Allahdan bir ziyafətdir. Allahın yanında olan nemətlər möminlər üçün daha xeyirlidir. (Ali İmran surəsi, 198)**

**Müttəqilərə vəd edilmiş Cənnətin vəsfi belədir; onun ağacları altından çaylar axar və onun yeməkləri də, kölgəsi də daimidir. Müttəqilərin aqibəti budur. Kafirlərin aqibəti isə Oddur. (Rad surəsi, 35)**

Dünyada həyatları boyunca cənnəti itirməkdən, sonsuz cəhənnəm əzabına uğramaqdan qorxaraq, Allaha qarşı gəlməkdən çəkinmişlər olan möminlər, Allahın qorxub pis əməllərdən çəkinənlərə vəd etdiyi mükafata qovuşmuşlar. Artıq, əbədi yurdlarına girmək üzrə sövq edilərlər:

**Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: “Sizə salam olsun! Nə xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!” Onlar deyəcəklər: “Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!” (Zumər surəsi, 73-74)**

Cənnətə girəcək möminləri burada gözləyən bir sürpriz daha vardır ki, bu an onlara hər şeyin üzərində bir xoşbəxtlik və həyəcan yaşadar: Rəbbimizdən özlərinə şifahi bir salam...

**Üstəlik Rəhmli Rəbb onlara: “Salam” deyəcək (Yasin surəsi, 58)**

Allah cənnətdəki möminlərə belə xitab edər:

**"Ey qullarım, bu gün sizin üçün qorxu yoxdur və siz qəm-qüssə görməyəcəksiniz." (Zuxruf surəsi, 68)**

İnsanı yaratmış olan Allah, onun nələr istəyəcəyini ondan daha yaxşı bilir və bunları bir mükafat olaraq cənnətdə mömin qulları üçün yaradacaq. Necə ki, nemətlərlə təchiz edilmiş olan cənnət insanın düşüncə sərhədlərindən kənar xüsusiyyətlərə malikdir. Daha əvvəl heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi saysız nemətlər möminlərə təqdim olunacaq. Hər şey və hər vəziyyət sonsuza qədər möminin tam istədiyi kimi olacaq:

**... Rəbbi yanında hər dilədikləri onlarındır. Məhz böyük fəzl (nemət və üstünlük) budur. (Şura surəsi, 22)**

Möminlərin cənnətdə yaşadıqları yerlər, təbii gözəlliklər, yeməklər, geyimlər, olduqları mühit, həyat yoldaşları, özlərini gözləyən hər cür sürprizlər kimi cənnətdəki sonsuz həyata dair bütün təfərrüatlar Quran ayələrində təsvir edilmişdir.

Bir ayədə də Allahdan qorxanların içində yaşadıqları əbədi həyat ilə Allahdan qorxmayanların qarşılaşdıqları qorxunc son belə müqayisə edilmişdir:

**Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində əbədi qalan və bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək kimsələr kimi ola bilərlərmi? (Məhəmməd surəsi, 15)**

Heç şübhəsiz ki, vicdanlı bir adamın yalnız bu ayəni bir az təfəkkür edib zehnində canlandırması, Allahdan gücünün çatdığı qədər qorxması üçün kafi olacaq.

**Ən böyük mükafat: Allahın əbədi rizası**

**Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur. (Tövbə surəsi, 72)**

Cənnətə girən möminlərin duyduqları ən böyük mənəvi həzz, Allahın bundan sonra özlərindən razı olduğunu, özlərini sevdiyini, onlara heç bir zaman qəzəblənməyəcəyini, əbədi olaraq Allahın dostu olacaqlarını bilmələridir. Allahın razılığını qazanmış olmaq insana heç bir maddi gözəlliklə qarşılaşdırılmayacaq qədər böyük bir sevinc və xoşbəxtlik verər. Necə ki, cənnət nemətlərini qiymətli edən də Allahın razılığıdır. Təqdim edilən nemətlər son dərəcə qiymətlidir, amma bunlardan daha qiymətli olan aləmlərin Rəbbi olan Allahın lütflərinə layiq görülməyin vermiş olduğu zövqdür. Ayələrdə belə buyurulur:

**O gün möminə deyiləcəkdir: “Ey arxayın olan kəs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Mənim qullarımın cərgəsinə keç! Cənnətimə daxil ol! (Fəcr surəsi, 27-30)**

# ALLAH QORXUSUNDAKI ƏKSİKLİYİN SƏBƏBİ

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?" (Yunis surəsi, 31)**

Allahın yuxarıdakı ayəsində açıq şəkildə ifadə etdiyi kimi, səthi bir inanca sahib olan insanlar, özlərindən soruşulduğunda Allaha inandıqlarını söylədikləri halda qəlblərində səmimi bir Allah qorxusu daşımazlar. Bunun ən gözlə görünən dəlili isə, Allahdan qorxan bir insanın Ondan çəkinməsi və hər rəftarının Quran əxlaqına uyğun olması lazım olarkən, bu insanların nə hal və rəftarlarında, nə də danışıqlarında Allahdan qorxduqlarına, ya da çəkindiklərinə dair bir əlamət görünməməsidir. Bu vəziyyətlərinin arxasında müəyyən əsaslı səbəblər vardır.

## Allahı gərəyi kimi təqdir edə bilməmələri

Cəmiyyətin daxilində eşitmə ilə formalaşan bir din anlayışı geniş yayılmışdır. Buna görə bir çox insan Allahı, dinin həqiqi qaynağında, yəni Quranda və Peyğəmbərimiz (s.ə.v.)-in hədislərində bildirilən sifətləriylə, xüsusiyyətləriylə tanımaz. Bu səbəbdən, Onu gərəyi kimi də təqdir edə bilməz. Halbuki, Allah bizə Özünü, Quranda ən doğru və açıq bir şəkildə tanıtmışdır.

Bir çox insanın Allah haqqında bildikləri ailələrindən, qohumlarından ya da sağdan-soldan eşitdiklərindən ibarətdir. Bunun bir nəticəsi olaraq da hər kəsin Allah haqqındakı düşüncəsi fərqlidir. İşin maraqlı tərəfi, insanların böyük bir qismi, o günə qədər ətraflarından eşitdikləri və öyrəndiklərinin səhv və ya əskik ola biləcəyinə ehtimal verməmələridir. Versələr də doğrunu araşdırmağı və öyrənməyi əhəmiyyətli görməzlər. Bu isə onları cəhənnəmlə nəticələnə biləcək böyük bir səhvə sürüyə bilər. Çünki Allahı tanımamaq, özü Onun bir çox sifətinin nəticəsindən də xəbərsiz olmağı gətirər.

Bu cür insanlar Allahı ümumiyyətlə, bağışlayan, kömək edən, ruzi verən, bəxş edən, nemət verən, qoruyan, mərhəmətli olan kimi sifətləriylə düşünüb özlərini rahatladırlar. Halbuki, Allahın intiqam alan, əzab verən, cəzası şiddətli olan, hər şeyə Qalib olan sifətləri vardır. Ancaq bəhsi keçən kəslər Allahın bu sifətlərinin əhatəsini bilməz; Rəbbimizi bu sifətləriylə düşünə bilməzlər. Bu sifətlərin öz hərəkət, davranış və danışıqlarına baxacaq olan istiqamətlərini ağıllarına gətirməzlər. Allahın bəzi sifətlərini adla bilsələr belə, tam

olaraq nə mənanı verdiklərini, bu sifətlərin öz sonsuz həyatlarına necə əks edib, təsir edəcəklərindən xəbərsizdirlər. Ya da Allahın bir çox sifətini tək istiqamətli düşünüb, bu sifətlərin özlərini də əhatə edəcəyini düşünməzlər. Məsələn, özlərinə bir haqsızlıq edildiyində Allahın sonsuz ədalətiylə axirətdə bu haqsızlığın cəzasını verəcəyini düşünürlər. Lakin Allahın ayələrinə lazımı qədər inanıb yerinə yetirməzlərsə, özlərinin də Allahın əzabı ilə qarşılıq görəcəklərini düşünməzlər.

İnsan Allaha qul olsun deyə yaradılmışdır, amma bu yaradılış məqsədini rədd edərsə, mütləq qarşılığını görər. Məhz belə böyük bir günaha da böyük bir cəza lazımdır ki, cəhənnəm bu ədaləti yerinə yetirmək üçün mövcuddur. Yaradılmış ən pis məkan olan cəhənnəm, insanın xəyal gücünün təsəvvür edə bilməyəcəyi ən böyük əzab qaynağıdır. Dünyada mümkün olan ən böyük ağrılardan qat-qat şiddətli ağrıları ehtiva edir.

Bəhs etdiyimiz tip insanlar, vicdanlarına uymamalarından qaynaqlanan qəflət və şüursuzluqları səbəbiylə, Allahdan qorxub çəkinməzlər. Onun gücünü və qüdrətini, heybət və əzəmətini gərəyi kimi qəbul edə bilməz, Onun hüzurunda durmaqdan və böyüklüyündən, Onun qəzəbinə məruz qalmaqdan içləri titrəyərək qorxmazlar. Bu səbəbdən, Allahın razılığını qazanmağa və Onun əmrlərini əllərindən gəldiyi qədər yerinə yetirməyə cəhd etməzlər. Onun qadağalarına əməl etməz, sərhədsiz bir həyat sürərlər. Onun verdiyi nemətlər qarşısında lazım olan hörmət və şükrü yerinə yetirməz, Allaha qarşı davamlı bir nankorluq içində olarlar. Nəticədə isə bu dünyada qorxusuzca keçirdikləri həyatlarının əvəzini, qorxu və əzab içində keçirəcəkləri sonsuz həyatlarıyla ödəyərlər.

### İnkarçıların səhv axirət inancı

Cahiliyyə cəmiyyətindəki bir çox insan, Allahı gərəyi kimi tanıyıb təqdir edə bilmədiyi kimi, cənnət və cəhənnəm haqqında da bir çox əskik məlumata və batil inanca malikdir. Bu kəslərin bir qismi dünya həyatından istədikləri qədər faydalanıb, Allaha üsyan edib, bunun qarşılığında da cəhənnəmdə qısa bir müddət qalacaqlarını, daha sonra bağışlanacaqlarını zənn edərlər. Amma özlərini gözləyən son, təxmin etdiklərindən çox daha acınacaqlıdır. Çünki cəhənnəm özlərinə verilən öyüdü dinləməyən azğın inkarçılar üçün sonsuza qədər sürəcək bir əzab məkanıdır. Allah cəhənnəmin inkarçılar üçün yaradıldığını və inkarda müqavimət göstərən şəxslər üçün geriyə heç bir dönüş olmadığını belə vurğulayır:

**Həqiqətən, Cəhənnəm kafirlər üçün pusquda dayanıb gözləyir. O, həddi aşanların qayıdacağı yerdir. Onlar orada əsrlər boyu qalacaqlar. (Nəbə surəsi, 21-23)**

Daha sonra, cəhənnəm, insanın xəyal gücünün təsəvvür edə bilməyəcəyi qədər böyük əzablar yaşadan bir yerdir. Şüurlu heç bir insanın cəhənnəm əzabı kimi bir əzabı

gözə ala bilməsi mümkün deyil. Cəhənnəm, Allahın Qəhhar (qəhr edən) sifətinin ən şiddətli təcəlli etdiyi və dünyadakı heç bir əzabla müqayisə edilə bilməyəcək əzablarla dolu qorxunc bir mühitdir. Bir damla qaynar suya, bir az aclığa, soyuğa dözə bilməyən aciz insanın, fərah və etinasız bir şəkildə belə bir əzabı gözə aldığını söyləməsi, ancaq şüurunun tam bağlı olduğunun bir göstəricisi ola bilər. Ozünə görə Allahın əzabını yüngül sayan, rahatlıqla qarşılayan bir kimsə, başdan bəri bəhs etdiyimiz Allahın qədrini gərəyi kimi təqdir edə bilməyən kimsədir.

**Dünyada özlərinə ayrılan zamana aldanmaları**

Allah dünyadakı imtahan mühitinin bir gərəyi olaraq insanlara müddət verər. Etdikləri səhvləri düzəltmək üçün onlara xəbərdarlıqlar göndərər və müxtəlif fürsətlər verər. Məhz cahil cəmiyyətin insanlarının Allahdan gərəyi kimi qorxmamalarının altında yatan bir başqa səbəb də budur; etdiklərinin qarşılığını o an görməmələri... Çünki ümumiyyətlə, insanlar qarşılığını dərhal sonra alacaqları mövzularda son dərəcə həssasdırlar. Belə bir misal üzərində düşünək:

Böyük bir şirkətdə yaxşı bir maaşla işləyən bir adama əhəmiyyətli bir məsuliyyət verilsə və bu məsuliyyəti müvəffəqiyyətli şəkildə yerinə yetirmədiyi təqdirdə şirkətdəki işinə son veriləcək olsa, görəsən, bu adam necə bir səy və diqqət göstərər? Nəticəsində məruz qalacağı itkini bildiyi halda bu işdə hər hansı bir zəiflik, ya da əksiklik göstərə bilərmi? Əlbəttə ki, xeyr. Bu itkini əsla gözə almaq istəməyəcək. Bunun üçün əlindən gələn hər şeyi edəcək, hətta lazım olduqda öz rahatlığından, yuxusundan, digər işlərindən imtina edəcək, amma o işin öhdəsindən gələcək. Çünki bu insan özünü çətinliyə salacaq bir sondan qorxar. Yaxşı, amma eyni insanlar görəsən bunların hamısından daha həqiqi olan Allaha hesab vermələri mövzusunda eyni qorxunu yaşayarlarmı? Böyük əksəriyyəti yaşamaz. Çünki bu insanlar ölümü və axirəti o qədər yaxın görməzlər, onlara görə içində yaşadıqları həyat daha realdır.

Halbuki, bir ayədə insanlara müəyyən bir müddət ayrıldığı belə açıqlanır:

**Əgər Allah insanları etdikləri günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı. Lakin Allah onlara müəyyən vaxtadək möhlət verir. Vaxtları çatanda isə hər kəsə öz əməlinə görə cəza, yaxud mükafat verəcəkdir. Şübhəsiz ki, Allah Öz qullarını görür. (Fatir surəsi, 45)**

Bu insanlar Allahın razı olmayacağı bir şey etdiklərində, o anda "başlarına daş yağması" kimi bir əzab gəlməsini gözləyər, sonra da cahilcəsinə "necə olsa bir şey olmur"

məntiqi ilə azğınlıqlarına davam edərlər. Bu azğın məntiqə hər dövrdə yaşayan cahil cəmiyyətin insanlarında rast gəlinər və Allah onların bu cahil düşüncələrini bizə belə xəbər verir:

**... və öz-özlərinə: “Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?” – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir (Mücadilə surəsi, 8)**

İman etməyən, ya da səthi inancı olan bir çox insan bu azğın dünyagörüşünə malikdir. Halbuki, etdiklərinin qarşılıqsız qalacağını və bundan ötəri də özlərinin guya son dərəcə oyanıq olduqlarını düşünən bu insanlar, əslində bu əzaba bilmədikləri bir tərəfdən yavaş-yavaş sürüklənirlər:

**Ayələrimizi yalan sayanları, özlərinin də bilməyəcəkləri bir yerdən tədricən tovlayıb məhvə aparacağıq.. (Əraf surəsi, 182)**

Allahın ayələrdə bəhs etdiyi, açıq şəkildə görünə bilən əzablar ola biləcəyi kimi gizli əzablar da hər an insanı əhatə edə bilər. Belə ki, bu əzab insanı daha dünyadaykən də əhatə edə bilər. Məsələn, adam Allahın razı olmadığı bir rəftarı və ya əxlaqı davam etdirərkən, amansız bir xəstəliyə düçar ola bilər. Mütləq fiziki olması da lazım deyil, Allahın insanın ürəyinə verəcəyi bir qorxu, çətinlik belə o adama olduğu mühiti dar etməyə yetər. Allah qorxunun bir cəza növü olduğunu Quranda belə bildirir:

**... Beləcə Allah etdiklərinə qarşılıq olaraq, ona aclıq və qorxu libasına bürüdü. (Nəhl surəsi, 112)**

Heç bir insan, Allahın məmnun olmadığı bir hərəkəti davam etdirdiyi halda, üzərində özünə qəflətən üz verəcək bir bəla dolaşmadığından əmin ola bilməz; Allahın heç bir əzabından təhlükəsizlikdə ola bilməz. Allah bu həqiqəti ayəsində xəbər vermişdir:

**Məgər o ölkələrin əhalisi əzabımızın onlara gecə vaxtı, onlar yatarkən gəlməyəcəyindən əminmi oldular? Ya da o ölkələrin əhalisi əzabımızın onlara səhər-səhər, onlar əylənərkən gəlməyəcəyindən əminmi oldular? Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər. (Əraf surəsi, 97-99)**

Eyni xəbərdarlıq başqa ayələrdə belə keçər:

**Allahın sizi quruda yerə batırmayacağına, yaxud üstünüzə daş-kəsəkli tufan göndərməyəcəyinə əminsinizmi? Sonra sizi qoruyan da tapa bilməzsiniz. Yoxsa sizi bir daha dənizə qaytarıb üstünüzə qasırğa göndərməyəcəyinə və kafir olduğunuza görə dənizdə sizi batırmayacağına əminsiniz? Sonra buna görə Bizdən intiqam alan bir nəfər belə tapa bilməzsiniz. (İsra surəsi, 68-69)**

Unutmamaq lazımdır ki, insan acizlik içində olan, Allaha sonsuz dərəcədə möhtac bir varlıqdır. İmtahan mühiti içində bütün çətinlik və sıxıntıları ancaq Allaha sığınaraq və Ondan güc alaraq üstələyə bilər. Amma acizliyini qəbul etməyən və Allahdan qorxmayanlar, gizli-açıq bütün bu əzab və bəlalarla qarşılaşmaq vəziyyətindədirlər ki, insan yaradılış olaraq buna dözə biləcək gücdə deyil. Buna görə istər dünyadakı, istərsə də axirətdəki bəla və əzablardan xilas olmağın tək yolu Allahdan mümkün olduğu qədər qorxmaq və bu şüurlu rəftar üzrə bir həyat sürməkdir.

**Əzab görənlərin yalnız çox azğın insanlar olduğunu zənn edərlər**

İnsanların bir çoxu ölümlərindən sonra Allahın, özlərini yaşadıqları həyatdan hesaba çəkəcəyinə və bu hesabın nəticəsində cənnətə, ya da cəhənnəmə göndəriləcəklərindən xəbərdar olduqları halda axirətləri üçün bir hazırlıq görməzlər. Necə ki, bu insanların, axirətin varlığına inandıqlarını iddia etdikləri halda, iman etməyənlərdən çox da fərqli bir həyata sahib olmadıqları və bundan da heç bir narahatlıq hiss etmədikləri görünür. İki tərəfin də həyat tərzləri, rəftar və davranışları, ehtirasları, reaksiyaları hardasa bir-birinin eynisidir. Aradakı tək fərq birinin müsəlman olduğunu iddia etməsi, digərinin isə belə bir iddiasının olmamasıdır.

Həm Qurana inandığını iddia edən, həm də iman etdiyi kitabın hökmlərinə uymayan bu insanların rahatlıqlarının səbəbi, ürəklərinin təmiz olduğu, onsuz da heç bir pislik olmadıqları iddiasında olmalarıdır. Bu səbəbdən, bunun təməlində yatan inanc da, özlərinin cəhənnəmə gedə biləcəklərinə əsla ehtimal verməmələri, başqa bir sözlə desək cənnətə gedəcəklərini qəti olaraq görmələridir.

Bu inancın bir xüsusiyyəti də, cəhənnəmə gedəcək olan insan modelini öz məntiqlərinə görə təyin etmələri və digər insanları da cənnət əhli elan etmələridir.

Onlara görə cəhənnəmlik olan insanlar, əksəriyyətlə televiziyada seyr etdiyi və qəzetlərdə oxuduqları qatillər, oğrular, terroristlər və insanlara zərər verməyə çalışan kəslərdir. Bunun xaricində qalanlar isə dərhal hər günahlarının əfv olunacağını sandıqları, xalqın arasında çoxluq təşkil edən sıravi insanlardır. Öz aralarında təyin edilən bu ölçülər, adam öldürmədiklərinə, oğurluq etmədiklərinə və terrorist olmadıqlarına görə, özlərinin cənnət xalqından olduqları zənnini doğurar. Məhz özlərini müsəlman qəbul etdikləri halda

hər cür günahı işləyə bilmələrinin, ibadət etməmələrinin, Quranı yaşamamaqlarının və Allahın sərhədlərindən uzaq bir həyat sürə bilmələrinin və bundan da heç bir qorxu və narahatlıq duymamalarının altında yatan səbəb budur; bunların heç birinin cəhənnəmə getmək üçün bir səbəb təşkil etmədiyi zənninə qapılmaları... Halbuki, bu özlərini atəş çuxuruna sürüyən qorxunc bir yanılmadır.

İçlərində Allah qorxusu daşımayan cahiliyyə insanlarının müsəlmanlıq adına törətdikləri qaydalar, Quranın hökmlərindən və Peyğəmbərimiz (s.ə.v)-in bildirdiklərindən çox fərqlidir. Məsələn, Qurana görə çox əhəmiyyətli olan və Allahın riayət olunmasını qəti əmr etdiyi bir mövzu, öz səthi məntiqlərinə görə o qədər də çox əhəmiyyəti olmayan, üzərində dayanılmayacaq bir mövzu olaraq qiymətləndirilər. Beləcə, öz uydurduqları dinin ölçüləri özlərinə, Allah qorxusundan tamamilə uzaq batil bir həyat modeli təqdim edir. Allah bir ayəsində bu insanların səhv məntiqinə belə diqqət çəkmişdir:

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?" (Yunis surəsi, 31)**

Bütün ömrü boyunca öz bildiyi batil dini tətbiq edib və beləcə həqiqi dinin heç bir hökmünü yerinə yetirməyən, üstəlik də bu şəkildə cənnətə girəcəklərini iddia edən bu cür kəslər böyük bir aldanış içində həyatlarını qorxub çəkinməyərək keçirərlər. Lakin hər nə qədər özlərini aldatsalar da vicdanları hər fürsətdə özlərinə həqiqəti xatırladır. Quranın həqiqətləriylə qarşılaşıb böyük bir ömrü günahlarla və səhvlərlə keçirdiklərini öyrənmək istəmədikləri üçün özlərinə həqiqi dini izah edən kəsləri də qətiliklə dinləmək istəməzlər. Bu mövzu üzərində düşünməmək üçün şüurlu olaraq başqa mövzularla diqqətlərini dağıdarlar. Başqa bir sözlə, qorxularına səbəb olacaq bir mövzu keçdiyində, ya da ağıllarına bir düşüncə gəldiyində bunu dərhal ört-basdır edərək köhnə rahatlıqlarına, qəflətlərindən geri dönmək istəyərlər. Allahı, Onun təhdidini, Onun əzabını ağıllarına gətirməkdən, digər bir sözlə Allah qorxusundan davamlı qaçarlar. Halbuki bu çox böyük bir ağılsızlıqdır. Çünki bu qaçış onları özlərini gözləyən qorxunc sondan qurtara bilməyəcək.

### "Allah necə olsa bağışlayar" şəklindəki batil düşüncələri

**Onlardan sonra Kitaba varis olan xələflər gəldilər. Onlar bu fani dünya malını alıb: "Biz bağışlanacağıq!" – deyirdilər. (Əraf surəsi, 169)**

Ayədə də diqqət çəkildiyi kimi, insanların bir qismi Allahın istəklərinə uyğun bir həyat yaşamamalarına baxmayaraq, yenə də Allahın özlərini bağışlayacağı düşüncəsindədirlər. Şübhəsiz ki, bunun ən əsas səbəbi Allahın sifətlərini, ədalətini təqdir edə bilməmələri və hadisələri Quran məntiqindən uzaq bir şəkildə dəyərləndirmələridir. Əlbəttə ki, Allah əfv edicidir və qullarının günahlarını bağışlayandır. Lakin bunun şərtinin nə olduğunu Allah Quranda belə bildirmişdir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: “Mən indi tövbə etdim!” – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

Ancaq Allah qorxusundan uzaq olan insanlar gizli - açıq davamlı xəbərdar edilmələrinə, haqqı bilmələrinə baxmayaraq "necə olsa Allah bağışlayar" kimi yanlış bir məntiqlə günah işləməyə davam edərlər. Halbuki bu, şeytanın insanları aldatmağa çalışdığı mövzulardan biridir. Şeytan belə bir yalan ilə insanları hər cür günaha və saxtakarlığa ard-arda sürüyər.

Həmçinin, Allah bir başqa ayədə, **"Şübhəsiz, onlar Rəbbinin əzabından əmin ola bilməz"** (Məaric surəsi, 28) ifadəsiylə insanlardan heç kimin belə bir zəmanətinin olmadığını açıqca ifadə etmişdir.

### Özlərini cənnətə layiq görmələri

Şübhəsiz, Qurandan uzaq yanlış bir din anlayışının doğurduğu axirət inancı da yanlış olacaq. Necə ki, cahil cəmiyyətin insanlarının böyük bir hissəsinin ortaq xüsusiyyəti özlərini cənnət əhli olaraq görmələridir. Bir çoxunun öldükdən sonra, etdiklərindən sorğuya çəkiləcəyinə bir qənaəti yoxdur. Özlərinə görə belə bir ehtimal olsa belə, yenə də yaxşı bir nəticə ilə qarşılaşacaqlarını düşünər və beləcə özlərini aldadıb rahatladarlar.

Allah, bu cür özündən əminliyə Quranda bir bağ sahibindən nümunə verərək diqqət çəkmişdir. Ayələrdə bildirildiyi kimi, Allahdan qorxmayan bağ sahibi mal-dövlətinin zəngin olmasından qaynaqlanan, özündən son dərəcə əmin bir ərköyünlük içindədir. Bağçasının məhsuldar olması və görünüşünün gözəlliyi onun özünə olan güvəninin təməl dayağıdır.

Bağlarının gözəlliyini və bərəkətini gördüyündə güclü olmaq üçün Allaha ehtiyacı olmadığı kimi son dərəcə cahilcə bir zənnə qapılmış və belə demişdir:

**O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!" (Kəhf surəsi, 35-36)**

Məhz bu bağ sahibi, əslində, axirəti və hesab gününü ağıllarından çıxararaq hər cür azğınlığı və sərhəd tanımamazlığı olan, daha sonra da sonsuza qədər yox olma, ya da cəhənnəmə gedib əzabla qarşılaşma düşüncəsinin dəhşəti qarşısında, necə olsa cənnətə gedəcəyi ovuntusu ilə özünü aldadan dövrümüzdəki insanlara da bir nümunədir. Mənfəətinin olmadığı yerdə qiyamət saatını inkar edən, lazım olduqda da öz ağlına görə cənnətlik olduğunu düşünən bu şüursuz zehniyyətə sahib olanların əlbəttə ki, içlərində Allah qorxusu yoxdur.

## Allahı sevdiyini söyləməyi kafi görmələri

Bəzi insanların Allahdan çəkinməmələrinin və gərəyi kimi qorxmamalarının altında yatan bir başqa səbəb də, Allahı sevdiklərini söyləmələri, lakin bu mövzuda səmimi davranmamalarıdır. Çünki həqiqi sevgi özü hörməti və Allahın bəyənmədiyi şeylərdən çəkinməyi də vadar edər. Lakin maraqlı olan, bu insanların həyatlarına və hərəkət tərzlərinə baxıldığında buna dair heç bir əlamətin görünməməsidir. Çünki səmimi olaraq Allahı sevən bir insan hər şeydən əvvəl Onun sərhədlərində son dərəcə dəqiqlik göstərəcək, Onun sevib bəyəndiyi şeyləri sevəcək, bəyənmədiyi, qınadığı, çəkindirdiyi şeylərdən şiddətlə çəkinəcəkdir. Bu sevgisini, ölənə qədər həyatının bütün ayrıntılarında Onun razılığını axtararaq, Ona olan dərin hörməti, etibarı, boyun əyiciliyi və sədaqəti ilə göstərəcək. Yoxsa bunun xaricində yalnız şifahi olaraq sevgi iddiasında olmaq, ancaq Allahın sərhədlərini aşaraq etinasız bir həyat sürmək, şübhəsiz səmimiyyətdən son dərəcə uzaq bir davranış olacaq. Və əlbəttə ki, bu səmimiyyətsizlik qarşılıqsız qalmayacaq, çox böyük bir hüsrana uğrayacaq.

Bu xüsus çox əhəmiyyətlidir: Allahın hökmləri son dərəcə açıqkən və cəhənnəmin varlığı qəti bir həqiqətkən, bir insanın yalnız şifahi bir sevgi ifadəsini kafi görməsi, özünü öz ağlına görə təmizə çıxarıb, vicdanını rahatlaşdırmaqdan başqa bir məqsəd daşımaz. Bu isə Quran məntiqi və ruhuyla tamamilə zidd bir davranışdır.

Səmimi müsəlmanlar Allahdan qorxarlar və Rəbbimizin hökmlərini dəqiqliklə yerinə yetirməyə çalışarlar. Bunun ən gözəl nümunələrindən biri də Peyğəmbərimiz (s.ə.v) dövründə yaşamış olan müsəlman qadınlardır. O dövrdə mömin qadınlar Uca Allahın hicab mövzusundakı əmrini böyük bir şövq və istəklə qarşılamışlar, dərhal itaət etmişdilər. Hicabla əlaqədar ayələrin endiyi dövrdə müsəlman qadınların gözəl rəftarlarıyla əlaqədar olaraq hz. Aişə (rədiyallahu ənh) –dən bunlar rəvayət edilmişdir:

***"Baş örtüklərini yaxalarının üstünə qoysunlar" ayəsini nazil edilincə harmaniyələrini (bütün vücudu örtən üst geyim) cıraraq onunla örtünmüşdürlər. "(İbn-i Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, cild:11, səh. 5880)***

Necə ki, onlardan sonra gələn müsəlmanlar da eyni şövq və qətiyyətlə bu əmri yerinə yetirmişlər.

**Cahiliyyə qorxusu ilə qorxmaları**

Allah, insanın hər cür halını, qüsurlarını, ağlından keçənləri, dualarını bilir. O halda vacib olan əxlaq Allaha səmimiyyətlə üz tutub Onu dost seçməkdir. Allaha qarşı duyulması lazım olan səmimi qorxu, insanı təslimiyyətli və gözəl əxlaqlı hala gətirərək onu Allahın sevgisini qazanmağa, Allaha yaxınlaşmağa təşviq edər.

Cahil cəmiyyətin insanlarının qorxuları isə daha fərqlidir. Onların duyduqları qorxular keçicidir. Bir çətinliklə qarşılaşdıqları zaman Qəhhar olan Allahın əzabını xatırlayar, onunla qarşılaşmaqdan qorxarlar. Amma Allah bir sınaq olaraq onları qurtardığında təkrar köhnə inkarlarına geri dönərlər. Quranda bu mövzuyla əlaqədar belə bir nümunə verilmişdir:

**Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, gəmilər də içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə Allaha – dini məhz Ona aid edərək yalvarıb deyərlər: "Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq". Allah onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. Bunlar dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik. (Yunis surəsi, 22-23)**

Göründüyü kimi, cahil cəmiyyətin insanlarının qorxuları onlara bir fayda verməz. İman edənlərin əksinə, qarşılaşdıqları hadisələrdən öyüd-nəsihət alıb düşünməzlər. Necə ki, Allah ancaq **"içi titrəyərək qorxan"** ların öyüd-nəsihət ala biləcəklərini Quranda belə bildirmişdir:

**Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaq ardına vurarlar. (Ala surəsi, 10-11)**

Məhz cahil insanlar yuxarıdakı ayələrdə bildirilən ikinci qrupdandır. Yəni Allaha qarşı dərin və səmimi bir qorxu hiss etmədikləri üçün qarşılaşdıqları hadisələr onları doğruya çatdırmaz. Allah Quranda bu insanların mövqeyini daha bir çox ayəsiylə xəbər vermişdir. Bu ayələrdən bəziləri belədir:

**De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!" – deyəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?" Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar! (Muminun surəsi, 84-90)**

## ALLAHDAN QORXMAYAN İNSAN NECƏ BİR ƏXLAQA SAHİBDİR?

Gözəl bir əxlaqa sahib ola bilmək ancaq Allahdan qorxmaqla və Onun əmrlərinə qəti olaraq boyun əyməklə mümkündür. Bir insanın gözəl əxlaqa sahib olması və bunu qətiyyətlə davam etdirə bilməsi üçün, güclü bir Allah sevgisi ilə birlikdə güclü və dərin bir Allah qorxusu daşıması lazımdır. Allahdan gərəyi kimi qorxa bilmək isə, Allahın böyüklüyünü, şanını və əzəmətini, üstün məqamını, sonsuz elm və qüdrətini, qulları üzərindəki qeyd-şərtsiz güc və hakimiyyətini, dilədiyini dilədiyi kimi reallaşdıra biləcəyini davamlı olaraq düşünmək və təfəkkür etməklə, Allahın vədinə, təhdidinə, haqq-hesab gününə, cəzasının şiddətinə, cəhənnəm əzabının sonsuzluğuna və qorxuncluğuna qəti olaraq iman etməklə mümkündür. Bu iman, güclü bir Allah qorxusunu doğurar. Bu qorxu da, insanın bütün rəftar və davranışlarını, hərəkət və söhbətlərini Allahın bəyəndiyi, razı olduğu əxlaq istiqamətində tənzimləməsini təmin edər. Allahdan qorxan adam Onun sərhədlərini qorumağa qarşı dərin bir həssaslıq içində olar.

Allahdan qorxmayan insanlar isə, Allahın bəyənmədiyi hər cür rəftarı göstərə bilərlər. Allaha hesabat verəcəyini unutmuş bir insanın dürüstlük göstərməsi, insanlara fədakar olması, ədalətli və namuslu olması, qısacası gözəl əxlaqlı olması üçün heç bir səbəbi yoxdur. Onun bütün əxlaqını yalnız öz fərdi ehtirasları və mənfəətləri formalaşdırır. Və ölümlü insanlara gözəl əxlaq göstərməyin onun üçün bir mənası ola bilməz.

Bu dünyagörüşünün bir nəticəsi olaraq insanın öz mənfəətləri uğruna etməyəcəyi şey yoxdur. Allahın qədrini gərəyi kimi təqdir edə bilmədiyindən Allahın əzabı onun üçün çəkindirici bir ünsür olmaz. Allahdan qorxmadığı və qarşılıq görəcəyini düşünmədiyi üçün həddi aşmaqda, insanlara zalımcasına bir rəftar göstərməkdə heç bir sərhəd tanımaz və bacardığı qədər azğın bir xarakter sərgiləyər. Allahın əzəmətini və intiqam alacağını ağlına gətirmədiyi üçün rahatlıqla Allahın sərhədlərini aşar.

Bu səbəblərdən ötəri Allah qorxusu olmayan insanlar, hər cür günaha və əxlaqi pozğunluğa meyllidirlər. Həm Allahın dininə tabe olmazlar, həm də zalımcasına bir rəftar göstərərək digər insanları da Quran əxlaqından uzaqlaşdırmağa çalışırlar. Dinin təqdim etdiyi gözəl əxlaqın yaşanmasına qətiyyən dözə bilməzlər. Əlbəttə, bu insanlar dünyada işlədikləri zülmlərin əvəzini axirətdə görəcəklər. Allah Quranda bu insanları və gördükləri sonu belə xəbər vermişdir:

**Kafir olub insanları Allah yolundan sapdıran kimsələr dərin bir azğınlığa düşmüşlər. Kafirləri və zalımları Allah bağışlamayacaq və doğru yola yönəltməyəcəkdir; içərisində əbədi qalacaqları Cəhənnəm yolundan başqa. Bu isə Allah üçün asandır. (Nisa surəsi, 167-169)**

Bu hissədə Allahdan qorxmayan zalım insanların Quranda təsvir edilən müəyyən xarakter xüsusiyyətləri araşdırılacaq.

**Şeytanla olan bənzərlik: şüursuzluq**

Allahın varlığını və gücünü bildikləri halda, Allahın dilədiyi şəkildə davranmayan, Ondan həqiqi mənada qorxmayan insanların vəziyyəti şeytanın vəziyyətiylə bənzərlik təşkil edir. Şeytanın davamlı təlqini və təsiri altında olan bu kəslər, az qala şeytanla eyni cür bir zehniyyət və ruh halı içindədirlər. Bu ortaq ruh halının ən diqqətə çarpan xüsusiyyəti isə şüursuzluqdur. Yəni insanın bildiyi və gördüyü bir həqiqət qarşısında lazım olan məntiqli reaksiyanı, göstərməsi lazım olan ən ağıllı mövqe və davranışı, ruh halını deyil, göz görə-görə yanlış, nizamsız və öz zərəri ilə nəticələnəcək reaksiya və davranışı göstərməsidir. Bu yanlış davranış tərzinin ən konkret nümunəsini şeytanın Allaha baş qaldırmağından görürük. Quranda bu hadisə bütün insanlara bir ibrət vəsiləsi olaraq çatdırılır.

Allah hz. Adəm (ə.s)-dan əvvəl mələkləri və cinləri yaratmışdı. Onlar Allahı tərif ilə təsbih edirdilər. Sonra Allah ilk insan olan hz. Adəm (ə.s)-ı yaratdı və mələklərin ona səcdə etmələrini əmr etdi. Mələklər Allahın əmrinə könüldən itaət edərək hz. Adəm (ə.s)-a səcdə etdilər. Ancaq mələklərin arasında olan və cinlərdən olan İblis, Allahın bu əmrinə üsyan edərək Ona üsyankar oldu. Çünki özünün hz. Adəm (ə.s)-dan daha üstün olduğuna inanırdı. Bu təkəbbürü üzündən, Allah ona, **"Ey İblis, Mənim iki əlimlə yaratdığıma səcdə etməyə sənə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?"** (Sad surəsi, 75) deyə soruşduğunda belə cavab vermişdi:

... **"Mən ondan daha xeyirliyəm ; Sən məni oddan, onu isə palçıqdan yaratdın." (Sad surəsi, 76)**

Allahın əmrinə qarşı belə bir itaətsizliyə cürət edən iblisi Allah lənətlədi və onun üçün əbədi cəhənnəm əzabı təqdir etdi. Şübhəsiz, İblisin bu üsyanında ağıldankənar və tamamilə şüursuz bir ruh halı hakimdir. İblis Allahın varlığına şəxsən şahiddir. Belə ki, Allahla danışmışdır. Allahın sifətlərini, gücünü və sonsuz cəhənnəm əzabını da çox yaxşı bilir.

Şeytanın və Allah qorxusundan uzaq bütün insanların pis əxlaqdakı bənzərliyi burada gizlidir: Allahın varlığını bildikləri halda Onun hökmünə qarşı gələ bilmək və kafirlərdən olmaq. Bu əslində son dərəcə möcüzəvi bir hadisədir. Çünki bu məlumatlara sahib olan şeytanın çox üstün bir imana və qorxuya sahib olması lazımlıdır. Şüur səviyyəsi

də eyni nisbətdə yüksək olmalı, Allaha son dərəcə itaətli və hörmətli olmalıdır. Halbuki, şeytan çirkin bir cürət və cəsarət göstərmişdir.

Həm Allahın varlığını tanımaq, Onun sonsuz gücünü və elmini qəbul etmək, həm də Ona qəsdli olaraq üsyan etmək açıq bir şüurla izah edilə bilməyəcək azğın bir vəziyyətdir.

Bir ayədə bu kəslərin vəziyyəti belə təsvir edilir:

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?" (Yunis surəsi, 31)**

Bir başqa ayədə isə inkarçıların şüursuzca davranışları və ruh halları belə xəbər verilmişdir:

**Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları) haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar. (Bəqərə surəsi, 171)**

Bu insanların şüursuz şəkildə inkar etdikləri mövzulardan biri də, yenidən dirilişdir. Ancaq yoxkən var edilmiş və öləcəyini qəti olaraq bilən bir insanın bir daha necə dirildiləcəyini soruşması şübhəsiz son dərəcə heyrətamizdir. Bir ayədə, insanların yenidən dirilməsini inkar etmələrinin təəccüblü olduğuna belə diqqət çəkilir:

**Əgər təəccüblənirsənsə, onların: "Doğrudanmı biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?" sözünə təəccüblən. Onlar Rəbbini inkar edənlərdir. Onlar boyunlarında qandallar olanlardır. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar. (Rad surəsi, 5)**

**Qürurlu və təkəbbürlüdür**

**Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

Allah qorxusu olmayan insanların ən diqqətə çarpan xüsusiyyətləri boş bir qürur və təkəbbür içində olmalarıdır. Bunun təməlində insanın özünü Allahdan müstəqil bir varlıq

olaraq görüb, sahib olduğu bəzi xüsusiyyətlərin özündən qaynaqlandığını zənn etməsi durar. Halbuki, bu son dərəcə mənasız bir düşüncədir. Çünki insan son dərəcə aciz və bir çox əskikliyi olan bir varlıqdır. İstədiyi qədər özünü üstün və qüsursuz zənn etsin, mütləq yorular, acar, susayar, başı ağrıyar, yatmadan dura bilməz, xəstə olar, yaşlanar və əvvəl-axır nəticədə ölər, bədəni çürüyüb parçalanar.

Allahın böyüklüyünü, hər şeyi yoxdan var etdiyini, insanlara sahib olduqları bütün imkan və xüsusiyyətləri verənin O olduğunu, dilədiyi anda hamısını geri ala biləcəyini, bütün canlıların ölümlü olduğunu, yalnız Allahın varlığının baki olduğunu bilən və davamlı bunun şüurunda olan bir insanın, qürurlu və azğın bir rəftar içində olması mümkün deyil. Ancaq bunları qavraya bilməyən, əskikliklərini, acizliklərini və ölümlü olduğunu unudan, şüuru bulanıq bir insan belə bir şeyə cürət edə bilər. Eynilə, Allahın Quranda insanlara bu mövzuda ibrət olaraq verdiyi Qarun kimi...

Qarunun Allahdan qorxmadan azmasına və təkəbbürlənməsinə səbəb olan şey zənginliyidir. Mülkün hamısının Allahın olduğunu və diləsə hamısını geri ala biləcəyini unutmuş, bu xəzinələri özünün sahib olduğu bəzi xüsusiyyətlərindən ötəri öz ağlına görə layiq olduğunu düşünmüşdü:

**Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də başqalarına yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir". Qarun dedi: "Bu mənə ancaq məndə olan biliyə görə verilmişdir". Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox var-dövlət yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz (üzlərindən tanınarlar). (Qəsəs surəsi, 76-78)**

Ayələrdə göründüyü kimi, Qarun eyni əxlaqdakı bütün insanlara ibrət olaraq daha dünyadaykən əzablandırılmışdır. Əgər iddia etdiyi kimi bir güc sahibi olsaydı şübhəsiz əvvəl özünü bu əzabdan qurtarardı. Ancaq nə elmi, nə xəzinələri, nə də birliyi və etibarı onu Allahın qəzəbindən qoruya biməmişdir:

**Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!" (Qəsəs surəsi, 81-82)**

Qarunun vəziyyəti, Allah qorxusu daşımadıqları üçün təkəbbürlük ehtirasına qapılan və özlərini şiddətli bir sona sövq edən, açıq-aşkar bir nümunə təşkil edir. Axirətdəki gözəl nəticənin isə ancaq təkəbbürlənməyən təqva sahiblərinə aid olduğu bir ayədə belə bildirilir:

**Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir. (Qəsəs surəsi, 83)**

**Qısqanc və təcavüzkardır**

Allah qorxusundan uzaq insanlar içlərindəki təkəbbürü elə böyüdüb bəsləmişlər ki, yaxşı olan hər şeyə öz ağıllarına görə tək özlərinin layiq olduğunu düşünər, buna görə də başqalarının sahib olduqları üstünlükləri qısqanarlar. Bu mövzuyla əlaqədar Allah, Quranda ibrət olaraq hz. Adəm (ə.s)-ın iki oğlu arasındakı hadisəni izah etmişdir:

**"Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. Qurbanı qəbul olmayan oğlu öz qardaşına demişdi: “Səni hökmən öldürəcəyəm!” Qardaşı da ona belə demişdi: “Allah ancaq müttəqilərdən qurban qəbul edər! Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Həqiqətən, mən aləmlərin Rəbbi Allahdan qorxuram. Mən istəyirəm ki, sən, həm mənim günahımı, həm də öz günahını üzərinə götürəsən və Od sakinlərindən olasan. Zalımlara veriləcək cəza budur”. Nəfsi onu qardaşını qətlə yetirməyə vadar etdi və o da nəfsinə tabe olaraq onu öldürdü və ziyana uğrayanlardan oldu. (Maidə surəsi, 27-30)**

Allah qorxusu olan bir insan nəfsinin pisliklərindən çəkinər. Bunun xaricində heç bir qorxu insanda, öz mənfi xüsusiyyətlərini köklü bir şəkildə düzəltmə istəyi və səyi doğurmaz. Bu səbəblə, yuxarıdakı ayələrdə də açıqlandığı kimi Allahdan qorxmayan qardaşlardan biri nəfsinin sərhəd tanımaz pisliklərinə özünü təslim etmişdir. Qardaşına qarşı olan rəqabət duyğusundan və öz qurbanının qəbul edilməməsindən qaynaqlanan qısqanclıq və kini üzündən, bir anda öz qardaşını öldürməyə qalxa biləcək bir vəziyyətə girmişdir. Bu nümunə, nəfsinə uymanın və Allahdan qorxmamağın insana nələr etdirə biləcəyini, nə qədər qorxunc bir hala sala biləcəyini göstərən əhəmiyyətli bir ibrətdir.

Allahdan qorxmayan insan, nəfsinə toxunan bir hadisədə, sırf öz nəfsinin istəkləri üçün qarşısındakılara maddi və mənəvi zərər verməkdən əsla çəkinməz. Qısqanclıq eyni zamanda şeytanın xarakterinin də təməl xüsusiyyətidir. Şeytan da Allahın hüzurundan qovulduğunda, hz. Adəm (ə.s)-a qarşı olan kin və qısqanclığı tamamilə ortaya çıxmış və var

gücüylə onun nəslindən gələcək insanları cəhənnəmə sürüyəcəyinə dair and içmişdir. Amma bu andı yenə ancaq öz tərəfdarları və dostları üçün məqbuldur. Uca Allahdan qorxub çəkinən səmimi möminlər üzərində isə heç bir təsiri yoxdur.

### Müstağnidir

"Müstağni", heç bir şeyə ehtiyacı olmayan, hər cür qüsur, nöqsan və problemdən uzaq deməkdir və bu sifət ancaq Allaha məxsusdur. İnsanlar və digər bütün canlılar da Allahın yaratdığı və hər an Onun diləməsiylə həyatlarını davam etdirən, bir çox acizlik və ehtiyac içində olan varlıqlardır. Ancaq əvvəldə da ifadə etdiyimiz kimi, Allahdan qorxmayan insanlar, ağıl və şüurları bağlandığı üçün Allaha qarşı acizlik içində olduqlarını görməməzlikdən gəlirlər. Öz ağıllarını bəyənərlər və əskik, ya da səhv ola biləcəklərini düşünməzlər. Özlərindən son dərəcə əmin olduqları üçün də günaha girməkdən çəkinməz, narahatlıq duymazlar. Allah Quranda, bu zehniyyətin nəticəsinin "azğınlıq" olacağını bildirmişdir:

**Xeyr; həqiqətən insan, azar. Özünü müstağni gördüyündən. (Ələq surəsi, 6-7)**

Bu insanlar özlərini hər şeydən müstağni gördükləri kimi etdiklərinin cəzasını görməkdən, bəla və əzabla qarşılaşmaqdan da cahilcəsinə özlərini uzaq görərlər. Bu səbəblə, azğınlıqlarını israrla və şüursuz bir cəsarətlə davam etdirərlər.

Allahın bir sınağı olaraq nemətlərində bir artım olsa azğınlıqları daha da çoxalır. Halbuki bu, Allahın onlar üçün hazırladığı bir sınaqdır. Və azğın şəkildə yaşadıqları müddət artdıqca, cəhənnəmdə görəcəkləri əzabın şiddəti də eyni nisbətdə artacaq:

**Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir. (Tövbə surəsi, 85)**

Onlar bu həqiqətin fərqində olmadıqları üçün, Allahın sınamaq üçün verdiyi güc və imkanların, özlərini Allahın əzabından qoruya biləcəyi kimi bir yanılmaya düşərlər. Məsələn, möhkəm və lüks bir avtomobilin özlərini qəzadan, yaralanmaqdan, ya da ölümdən, möhkəm bir binanın isə zəlzələlərdən, fəlakətlərdən, hücumlardan qoruyacağını düşünərlər. İnsan əlbəttə, qorunmaq məqsədiylə möhkəm bir binada otura bilər. Ancaq dünyanın ən möhkəm binası belə yeri gəldiyində böyük bir fəlakət qarşısında dağılar.

Bunun kimi bəhsi keçən insanlar, sahib olduqları imkanlarla alacaqları digər bir çox tədbirin özlərini hər cür təhlükə və bəladan qoruya biləcəyini, sağlamlıqları və bədənləri ilə əlaqədar alacaqları hər cür tədbirin özlərini sarsılmaz edəcəyini zənn edirlər.

Halbuki, bu, tamamilə nəticəsiz bir səydir. Tək bir virus belə Allahın əzabını bu insanlara daşımağa kifayətdir. Ya da beyinlərindəki tək bir kapilyar damarın çatlaması bu kəslərin sonsuza qədər yaşayacaqları əzabın başlanğıcı ola bilər. Heç kim və heç bir güc, bir insanı Allahın qəzəbindən qoruya bilməz. Allah bu həqiqətə **"... Mənim qəzəbim, kimin üzərinə ensə, şübhəsiz o, bədbəxt olar."** (Taha surəsi, 81) ayəsiylə diqqət çəkmişdir.

Allahdan qorxmayan kəslər özlərini ölümdən belə müstağni görərlər. Bu insanlar üçün, yaxın ətraflarından hələ yaşı gənc bir insanın ölümü, ya da şan-şöhrət, mədəniyyət səviyyəsi kimi mövzularda özlərindən üstün gördükləri bir insanın ölümü ani və gözlənilməz vəziyyətlərdir. Bu adamın xüsusilə, bir qəza, ya da ağır bir xəstəlik nəticəsində ölmüş olması, gənc və sağlam görünən bədəninin tanına bilməyəcək, hətta baxılmayacaq hala gəlməsi, ölümü unutmaq istəyən bu tip insanlara böyük bir zərbə olar.

Bəlkə də hələ bir-iki gün əvvəl birlikdə olduqları bir insanı yol kənarına atılmış avtomobilin yanında tanınmayacaq şəkildə yatarkən görmələri, daha sonra qara neylon torbanın içinə qoyulub ipinin tarıma çəkilməsi, unutmaq istədikləri çox şeyləri yadlarına salar. Özlərinə həm yaş, həm həyat tərzi, həm də ruh halı olaraq çox bənzəyən bir insanı, ətrafına toplaşmış bir izdiham tərəfindən yolda yatan cəsədi seyr edilərkən görmək, ürəklərini öz ölümlərinə və axirətlərinə heç hazırlıq etməmiş olmağın verdiyi qorxuyla doldurar. Çünki bəlkə də bir-iki gün əvvələ qədər üzərindəki paltarlarla insanlara göstəriş edən, əsas məqsədinin, öz peşəsində ən üst səviyyəyə gəlmək olduğunu və din ilə maraqlanacaq vaxtı olmadığını izah edən, ya da axirət mövzusunda lağ, zarafatlar edən bu tanıdıqları, indi çox fərqli bir vəziyyətdədir. Əməkdaşlar yola səpələnən və parçalanmış olan gözlüyünü, əzilən ayaqqabılarını və ya marka olduğu üçün lovğalanan digər əşyalarını süpürərək zibilə atarlar. Olduqca bəyəndiyi bədəninin qoxumaması üçün üçün dərhal meyitxanaya aparılan və orada digər ölülərin olduğu soyuq kabinetə buraxılan bu insan, bir-iki gün içində də ağ bir bezin içinə sarılaraq özü üçün açılan çuxurun içinə atılar.

Ancaq bir çox adamın, yaxını olan bir insanın ölümündən və bu vəziyyəti görməkdən duyduğu qorxu, çox qısa sürər. Aradan az bir müddət keçməmiş laqeyd və pərvazsız zehniyyətlərinə yenidən geri dönər və ölümü yenə özlərindən uzaq görməyə başlayarlar. Ətraflarında davamlı ölən insanları görmələrinə, axirətin varlığını bilmələrinə, bədənlərinin də get-gedə qırışmasına və ölümə addım-addım yaxınlaşmalarına baxmayaraq Allahdan qorxub çəkinmədikləri üçün ölümü israrla düşünməz, özlərindən uzaq görərlər. Buna görə də çox qısa müddət qalmasına baxmayaraq özlərinə nizam verəcəklərinə, özlərini Allahın dilədiyi şəkildə düzəldəcəklərinə, daha qalın bir qəflət pərdəsinə bürünərlər.

**Dünyəvi qorxu və narahatlıqlarla doludur**

Allah inancına və qorxusuna sahib olmayan insan üçün bütün dünya xaos və qeyri-müəyyənliklərdən meydana gələr. Hər şeyin təsadüflər nəticəsində inkişaf etdiyini, ətrafında olub bitən hadisələrin də özbaşına baş verdiyini sanar. Bu vəziyyətdə heç bir zaman həqiqi bir təhlükəsizlik və rahatlıq duyğusu yaşaya bilməz. Çünki hər an başına bir şeylər gələ bilər, onu üzəcək, zədələyəcək, zərər verəcək hadisələr baş verə bilər. Gələcəklə əlaqədar saysız narahatlıqları və qorxuları vardır. Məsələn, amansız bir xəstəliyə tutula, bütün pulunu itirə, ya da sevdiyi bir insandan ayrıla bilər. Və ya heç ümid etmədiyi fəlakətlər özünün, ya da yaxınlarının başına gələ bilər. Bütün bu mümkün hadisələri nəzarətsiz zənn etdiyi üçün hər birindən ayrı-ayrı qorxu və narahatlıq duyar. Hər birini öz idarəsi altına almanın mümkün olmadığını da bildiyi üçün böyük bir çarəsizlik və ümidsizlik içinə düşər.

Ətrafında özünü əzməyə, alçaltmaya çalışacaq saysız rəqibləri vardır. Bunlara qalib gələ bilməsi mümkün deyil. İnsanların özü haqqında nə düşündüyünə qədər hər şeyi tək-tək hesablamaq məcburiyyətindədir. Bu, ona təsvir edilməyən bir gərginlik və stress yaşadar.

Halbuki, yalnız Allahdan qorxan bir insan saydığımız bu qorxuların heç biri ilə əlaqədar olmaz. Allah qorxusu və iman bu qorxuların hamısını ortadan qaldırar. Hər şeyin sahibinin və yaradıcısının Allah olduğunu, hadisələrin Allahın idarəsində və təyin etdiyi qədər istiqamətində inkişaf etdiyini, Özünə inanıb güvənən qullarını Allahın qoruyub müdafiə edəcəyini bilmək iman edən bir insanı hər cür qorxu və asılılıqdan azadlığa qovuşdurar. Bir ayədə belə buyurulur:

**Allah bir-biri ilə çəkişən bir neçə şərikli ağası olan kişi ilə tək bir ağası olan kişini məsəl çəkir. Onlar məsəlcə eyni ola bilərmi? Həmd Allaha məxsusdur, lakin onların əksəriyyəti bunu bilmir. (Zumər surəsi, 29)**

Allaha iman etməyən, bu səbəbdən Allahdan qorxmayan insanlar milyonlarla fərqli qorxu yaşayarlar. Bu insanlar, insanlardan qorxub çəkinirlər, bir tək Allahdan qorxmazlar. Allahın hüzurunda hesaba çəkiləcəkləri anı əsla ağıllarından keçirməz, amma iş yerində özlərindən daha yüksək vəzifədəki bir insana, yoldaşlarına, analarına, atalarına bunun kimi bir çox insana verəcəkləri hesabdan çəkinərlər.

Yalnız Allaha yönəldilməsi lazım olan qorxu hissi Onun yaratdıqlarına yönəldikdə bu qorxu insanın bütün rəftar və davranışlarına da təsir edərək, özünü son dərəcə alçaq bir mövqeyə salar. Çünki həqiqətən qorxulmağa layiq olan tək varlıq Allahdır. Mütləq gücün sahibi Odur, hər şey Onun diləməsi və idarəsi altındadır. Allahın məlumatı və icazəsi

xaricində heç bir şey reallaşa bilməz. O, istəməsə heç bir şey insana zərər verə bilməz. Bu səbəbdən, Allahdan başqa qorxub çəkinilməsi lazım olan varlıq yoxdur.

Əvvəldə də ifadə etdiyimiz kimi, Allahdan deyil, başqalarından qorxan insanlar, Allahın yaratdıqlarını Allahdan müstəqil bir güc və iradə sahibi olaraq görərlər. Allahı qoyub Onun yaratdıqlarından mədət ummaq kimi böyük bir yanılmaya düşərlər. Bu gözlədiklərinin qarşılığını heç bir zaman ala bilmədikləri kimi ömürləri alçaldılaraq və əzilərək keçər. Allaha qul olmaqda qürurlanan, təkəbbürlənən bu insanlar əslində minlərlə insanı razı etməyə çalışırlar.

Allah iman edənlərə qətiyyən insanlardan qorxmamalarını, yalnız Özündən qorxmalarını əmr etmişdir:

**... Elə isə insanlardan qorxmayın, Məndən qorxun və Mənim ayələrimi ucuz qiymətə satmayın... (Maidə surəsi, 44)**

**... Onlardan qorxmayın, Məndən qorxun ki, sizə olan nemətimi tamamlayım. Ola bilsin ki, doğru yola yönələsiniz. (Bəqərə surəsi, 150)**

## Vicdansız və nankordur

Quranda Allahdan qorxub çəkinməyənlərin nankorluqlarına dair bir çox nümunə vardır. Lakin bunların içində bəlkə də ən ətraflı olaraq verilən nümunə, İsrail oğullarından bəzi kəslərin Allaha və peyğəmbərlərinə qarşı göstərdikləri vicdansızlıq və nankorluqlardır. İsrail oğulları heç kimə verilməyən nemətlərlə nemətləndirilmiş, özlərinə saysız möcüzələr göstərilmiş, aralarından peyğəmbərlər çıxmış bir qövm olduğu halda, içlərindəki bəzi azğın kəslər bunlardan heç təsirlənməmişdilər. Hz. Musa (ə.s) hər dəfə onları səbrlə öyrətməyə çalışmış, ancaq onlar "həqiqi iman" a və "Allaha qul olmağa" əsla yanaşmamışlar. Əzabı görüncə Allahın əfvinə sığınmışlar, Allah onları əzabdan qurtaranda isə yenidən zülmə düşmüşlər. Allah onları hər dəfə bağışladıqca, onlar təkrarən inkara dönmüşlər, hətta Ondan başqa ilahlar qəbul etmişlər. Peyğəmbərləri inkarçılara qarşı çətin bir mübarizə içindəykən, İsrail oğulları içindəki münafiqlər öz arzu və istəklərini, mənfəətlərini ön planda tutmuşlar, heç bir zaman səmimi olaraq Allaha və Onun dininə bağlanmamışdırlar. Böyük bir nankorluq göstərərək, peyğəmbərləri hz. Musa (ə.s)-ı mübarizənin ən çətin anında tək başına buraxmış və öz canlarının və maraqlarının dərdinə düşmüşlər. Bununla da kifayətlənməmiş, son dərəcə həyasız və nankorcasına rəftar və ifadələr sərgiləmişlər:

**Onlar dedilər: "Ey Musa, biz, onlar dayandığı müddətcə heç bir zaman ora girməyəcəyik. Sən və Rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq. (Maidə surəsi, 24)**

Göründüyü kimi bu insanlar içlərində Allah qorxusu daşımadıqları üçün, nəfsləriylə zidd düşən bir hadisə qarşısında, dərhal Allaha və Onun Peyğəmbərinə qarşı nankor və üsyankar bir rəftar göstərmişlər. Uca Rəbbimiz Allahın və elçisinin daha əvvəl, özlərini ən çətin düşmənləri olan Fironun zülmündən qurtardığını, saysız nemətlər verdiyini, onları davamlı imana və əbədi qurtuluşa dəvət etdiyini bir anda unutmuşdular.

# ALLAHDAN QORXMAYANLARIN GÖRDÜKLƏRİ QARŞILIQ

## Dünyada gördükləri qarşılıq

Allah Özündən qorxub çəkinməyən insanlara dünyada istər fiziki, istərsə də mənəvi çətinliklər yaşadar. Hər nə qədər onlar açıq şəkildə görünən bir müsibət gözləsə də, əslində fərqində olmadan maddi-mənəvi saysız müsibətlərlə dolu bir həyat sürərlər. Onları ən çox yanıldan səbəblərdən biri də hər şeyə baxmayaraq bəzi nemətlərə hələ sahib ola bilmələridir. Məsələn, belə bir adam zəngin ola bilər, ya da gözəl bir görünüşə sahib ola bilər. O, bütün bunlara aldanaraq hər şeyin yolunda getdiyini zənn edər və azğınlıqlarını davam edər. Halbuki, özü fərqində deyil, amma etdiyi hər şey Allah qatında anbaan yazılır. Cəhənnəmdə isə bütün bunlar qarşısına sonsuz bir əzab qaynağı olaraq çıxacaq. Allah insanları bu mövzuda belə xəbərdar etmişdir:

**Artıq sən onları, müəyyən bir müddətə qədər öz qəflətləri içində burax. Onlar elə zənn edirlər ki, onlara verdiyimiz mal və övladla Biz onların yaxşılıqlarına tələsirik (və ya kömək edirik)? Xeyr, anlamırlar!. (Muminun surəsi, 54-56)**

Amma, əlbəttə, bu insanların hamısının vəziyyəti bir deyil. Kimisinin də əzabı dünyada başlayar. Xəstəliklər, qəzalar, şikəst qalma, böyük maddi itkilər, sevdiklərini itirmək kimi davamlı bir itki yaşayarlar. Başlarına gələnlərin Allahdan bir sınaq olduğunu düşünmədikləri və təvəkkülü olmadıqları üçün, qarşılaşdıqları hər çətinlik onlar üçün əzab olar. Allah heç bir istiqamətdən işlərini asanlaşdırmaz, bir qapı açmaz. Daima bir bərəkətsizlik və tərslik kimi görünən vəziyyətlər olar. Kiçik-böyük nə ilə maraqlansa, hansı işə yönəlsə həmişə maddi və ya mənəvi zərərlə nəticələnir. Necə ki, Allah Quranda onların bu vəziyyətlərini dolanışıq çətinlikli bir həyat olaraq xarakterizə etmişdir:

**"Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!." (Taha surəsi, 124)**

Allahdan qorxmayan bir insanın, sahib olduğu qaranlıq ruh halı üzündə əks olunur. Üzündəki nursuz ifadə, danışığındakı pozuqluqla birləşdikdə son dərəcə narahat edici bir görünüşə bürünər. Şübhəsiz ki, bu, mənəvi bir pisliyin və çirkinliyin fiziki görünüşdə əks olunmasıdır. Allah ayədə bunu "zillət" olaraq təsvir etmişdir:

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar.. (Yunis surəsi, 27)**

Bu insanların uğradıqları gizli itkilərdən biri də ağıllarının və anlayış qabiliyyətlərinin əllərindən alınmasıdır. Ən sadə həqiqətləri belə qavraya bilməzlər. Məsələn, içində olduqları bədbəxtliyin, narahatlığın, qorxu və çətinlik dolu ruh halının səbəbini görə bilməzlər.

Şübhəsiz, Allahdan qorxmayan bir insanın başına gələ biləcək əzab növləri burada sayıla bilməyəcək qədər müxtəlifdir.

İnsanı Allah yaratmışdır və ona ən acı verəcək şeyləri də yenə O bilir. İnsanın heç təxmin edə bilməyəcəyi istiqamətlərdən çətinliklər yaradaraq onu cəzalandıra bilər. Allahın qəzəbi bir ayədə belə xəbər verilmişdir:

**…Allahın sizə olan nifrəti indi sizin özünüzə olan nifrətinizdən daha böyük idi”. (Ğafir surəsi, 10)**

Heç şübhəsiz, şüuru açıq heç bir insan, sonsuz güc və qüvvət sahibi Allahın qəzəbini üzərinə çəkəcək bir əxlaqı qəbul etməz. Daha sonra da, insan o qədər zəif yaradılmış bir varlıqdır ki, çox vaxt çox kiçik və sıravi çətinliklərə belə dözə bilməz. Məsələn, çığırdacaq, yalvardacaq dərəcədə bir acı insan üçün dözülməzdir. Amma buna gələnə qədər, sırf bu qışqırığı uzaqdan eşitmək belə əslində insana tərifsiz bir çətinlik yaşadar. Çünki insanın həm ruhu, həm də fiziki quruluşu ağrıya, qorxuya, gərginliyə son dərəcə dözümsüz bir şəkildə yaradılmışdır. Bir az dar və sıxılmış bir məkanda olmağa, diksindirici bir qoxuya, bir az mədə bulanması, ya da diş ağrısına belə dözümü yoxdur. Üstəlik, bunlar bir əzab növü deyil, dünyada qarşılaşıla bilən son dərəcə sıradan əksikliklərdir.

Bu açıq həqiqətlərə baxmayaraq insanların çoxu qəflət və şüursuzluqlarından ötəri Allah qorxusundan uzaq bir həyat sürərlər. Halbuki, bu insanların ruhlarına və bədənlərinə dünyada daddırılan ağrılar cəhənnəmdə qarşılaşacaqları əzabların çox kiçik bir əks olunmasıdır və yalnız ibrət və xəbərdarlıq mahiyyətindədir. Amma bir ömrü, Allahın sonsuz gücünü, qüdrətini gözardı edərək keçirən bu insanlar, özlərinə ölüm gəldikdə Allahın əzəmətini bütün şiddətiylə hiss edəcək və dünyadakı heç bir qorxu ilə müqayisə edilə bilməyəcək, tərifi mümkün olmayan bir qorxuya qapılacaqlar.

Şəxsi əzablarla yanaşı Quran, Allahın Öz Qatından göndərdiyi əzablarla həlak olmuş insan birliklərinin nümunələri ilə doludur. Bu insanlar Allahın sərhədlərini tanımayaraq baş qaldırdıqları üçün onlar heç şüurunda deyillərkən qəflətən böyük fəlakətlərlə yox edilmişlər. Allah kiminə evlərini yerindən sökən qasırğalar göndərmiş, kiminə yaşadıqları

şəhərləri yerlə bir edən leysanlar isabət etdirmişdir. Zəlzələlərlə nə qədər insan birliklərini, mülkləriylə birlikdə yerin dibinə keçirmişdir. Kimini suda boğmuş, kimini də püskürən lavaların altında buraxaraq daş halına gətirmişdir.

**Axirətdəki vəziyyətləri**

İnsanların dünyada keçirə biləcəkləri orta hesabla 60-70 il kimi çox az bir zamanları vardır. Məktəb illəri, iş həyatına atılmaq, pul qazanıb yaxşı bir ev, avtomobil sahibi olmaq, münasib bir insanla evlənmək, oğul-uşaq sahibi olmaq deyərkən göz açıb bağlayana qədər keçən əlli illik bir ömrün ardından qırışlarla dolu bir dəri, fiziki funksiyalarını itirməyə başlamış bir insan qalar. Az-çox, bir beş-on ilinin də qaldığını görən insanlar artıq özlərini ölümə daha yaxın hiss etməyə başlayırlar. Lakin işin maraqlı tərəfi buna baxmayaraq bəziləri şüursuz və anlayışsız olmağa davam edər, qalan bu bir neçə illərini də ölümü çox düşünməməyə çalışaraq keçirməyə cəhd edərlər. Allah bu vəziyyətlərinə qarşılıq insanları belə xəbərdar edir:

**Onlar Bizim hüzurumuza gələcəkləri gün necə yaxşı eşidəcək, necə də yaxşı görəcəklər! Lakin zalımlar bu gün açıq-aydın azğınlıq içindədirlər. Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər.(Məryəm surəsi, 38-39)**

Ancaq məsuliyyətsizcə keçirilən bu həyatın ardından asan şəkildə canlarını təslim edəcəklərini və dinclik içində öləcəklərini zənn edən bu insanların ölümləri, heç də onların gözlədikləri sakitçilikdə reallaşmaz. Hiss etmədən, asanlıqla həyatı tərk edib əbədi yuxuya gedəcəklərini zənn edərkən, heç gözləmədikləri bir anda özlərinə vəkil qılınan ölüm mələklərini qarşılarında görərlər. Ölüm mələkləri isə insanların yalvarmasına görə deyil, Allahın əmrinə görə hərəkət edərlər. Birdən-birə kürəklərində şiddətli bir zərbə duyduqları və tərifsiz bir acı hiss edərək mələklərin canlarını almağa gəldiklərini gördükləri zaman hər şeyi anlayarlar:

**Mələkləri, onların üzlərinə və arxalarına vuraraq, "yandırıcı əzabı dadın" deyə o inkar edənlərin canlarını alarkən görməlisən. (Ənfal surəsi, 50)**

İnkarçıların işlədiyi cinayət çox böyük bir günahdır və cəzası sonsuza qədər sürəcəkdir. Bu adamların qaçmaları, ölməkləri qısacası, heç bir şəkildə xilas olmaları

mümkün deyil. Çünki hər şeyi yoxdan var edən və hər şeyin həqiqi sahibi olan, sonsuz bir güc və elm sahibi, aləmlərin Rəbbi olan Allaha üsyan etmişlər.

Bu insanlar, dünyadaykən Allahdan qorxmazlar, amma Allah buna qarşılıq axirətdə onlara bənzərini heç yaşamadıqları, dadmadıqları qədər böyük qorxular yaşadar. Onlara xüsusi olaraq hazırlanmış qorxunc bir əzab mühitinə salar. Sonsuza qədər qorxu, dəhşət və gərginlik içində qəhr edər:

**Zalımların qazandıqları günahlar özlərinə qarşı çevrildikdə onları bunun qorxusundan titrəyən görəcəksən... (Şura surəsi, 22)**

Qorxu və dəhşət hissi, sürətlə tükənən bir ömrü Allahdan qorxub çəkinməkdən etinasız keçirən bu insanların artıq sonsuza qədər yaxalarını buraxmayacaq. Çünki Allah o zamana qədər **"... onları yalnız gözlərin bərələ qalacağı günə təxirə salmaqdadır."** (İbrahim surəsi, 42) Qiyamət və hesab günü yaşadıqları qorxu, çaşqınlıqla da qarışıq bir qorxudur və bu ruh halı Quranda belə təsvir edilir:

**Sur üfürüləcəyi gün, Allahın dilədiyi kəslər xaricində, göylərdə və yerdə olan hər kəs artıq qorxuya qapılmışdır və hər biri "boyun bükmüş" olaraq Ona gəlmişlər. (Nəml surəsi, 87)**

Qiyamət günü insanlar çaxnaşma halında çırpınırlarkən hamilə qadınlar da qorxudan uşaqlarını salarlar. Məruz qalacaqları əzabın qorxusunun şiddəti insanların ağıllarını başlarından alar. Ayələrdə insanların o günkü vəziyyəti belə xəbər verilir:

**Ey insanlar! Rəbbinizdən qorxun! Həqiqətən, o Saatın sarsıntısı müdhiş bir şey olacaqdır. Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyini unudacaq, hər bir hamilə qadın bətnindəkini salacaqdır. İnsanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Lakin Allahın əzabı hədsiz şiddətlidir. (Həcc surəsi, 1-2)**

Amma qorxu, çaxnaşma və dəhşətə qapılmaqları onlara heç bir fayda verməz. Onlara yardım edilməz. Üstəlik bu daha başlanğıcdır. Xəyal belə edə bilməyəcəyi qədər böyük iztirablar çəkəcək, qorxular yaşayacaqlar. Sonsuz güc və ədalət sahibi Allah, Muntəkim (intiqam alan) sifətinin bir təcəllisi olaraq intiqam alacaqdır. Ağlamağın, yalvarmağın, fəryad etməyin, çırpınmaq və peşman olmağın, əfv diləməyin, heç bir şeyin faydası yoxdur. Kimsə inkarçılara kömək edə bilməz. Nə edirlərsə etsinlər faydası yoxdur; günahlarını etiraf etmələri, səbir və ya səbir etməmələri də bir şeyi dəyişdirməz. Allah bu ümidsiz çırpınışlara ayədə diqqət çəkmişdir:

**"Girin ona; artıq İstər dözün, istər yox; Sizin üçün birdir. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!" (Tur surəsi, 16)**

Bu vəziyyətə gələn kəslər elə bir çıxılmaz vəziyyətdə düşmüşlər ki, sonsuza qədər bir çıxış yolu tapa bilməyəcəklər. Halbuki, dünyada həyatları boyunca özlərinə saysız xatırlatmalar, xəbərdar edib qorxudan xəbərlər gəlmişdir. Yenə önlərinə saysız imkan və nemətlər təqdim edilmiş, onlardan yalnız vicdanlarından istifadə etmələri və Allahdan qorxub çəkinərək hərəkət etmələri istənmişdir. Amma cəhənnəmdə Allaha yalvaracaq bu kəslər dünyadaykən təkəbbürlü olduqları üçün Allaha yalvarıb-yaxarmazlar. Qorxmadan təkəbbürlənər, ölümü və axirəti heç hesaba almazlar.

Dünyada ikən Allaha qarşı təkəbbürlənməkdən qorxub çəkinməyənlər, qiyamət günü üzüstə süründürülərək əzab yerlərinə aparılacaqlar. Artıq sonsuza qədər həm fiziki, həm mənəvi olaraq ağıllarının qəbul edə bilməyəcəyi qədər şiddətli ağrılar yaşayacaqlar.

İnkar edənlər yenidən dirilişlə birlikdə dərhal qürurları qırılmış, pərişan vəziyyətə düşmüşlər. Amma bu yalnız başlanğıcdır. Dəstələr halında cəhənnəmə girdiklərində cəhənnəmin qapıları üzlərinə bağlanılar və ola biləcək ən dəhşət verici görünüşlərlə qarşılaşarlar. Və sonra da atəşə atılarlar. Şübhəsiz, dünyadakı heç bir ağrı, cəhənnəm əzabının şiddəti ilə müqayisə edilə bilməz. Çünki Allahın verdiyi dözülməz əzabın bir bənzəri yoxdur. Bir ayədə belə buyurulur:

**O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz. (Fəcr surəsi, 25-26)**

Fiziki ağrılarla yanaşı mənəvi əzablar da bir tərəfdən inkarçıları qəhr edər. Cəhənnəmdən Allahın diləməsi xaricində çıxa bilməyəcəklərini anlamağın verdiyi ümidsizlik hissi bütün ruhlarını bürüyər. Bu vaxt davamlı xor görülər, alçaldılar, rəzil olar, kiçik düşərlər. Amma çarəsiz olarlar. Qorxu, dəhşət və ümidsizlik dolu bir sonsuzluq onları gözləyir.

# SON SÖZ

Hal-hazırda cəhənnəmin kənarında olsanız və oradakı əzab mələklərinə cəhənnəm əhlinə müraciət edib etdikləri dözülməz işgəncələri gözünüzlə görsəniz, alov-alov yanan atəşin uğultusunu, cəhənnəm əhlinin fəryadını, sümüklərini çatladan inləmələrini, əziyyətlə nəfəs alıb-verməlerini, bir dəfə daha dünyaya geri dönmək istəyən peşmanlıq dolu yalvarışlarını eşitsəniz və sonra təkrar dünyadakı həyatınıza qaytarılsaz, görəsən həyatınızda nələr dəyişərdi? Heç şübhə yoxdur ki, içinizi təsvir edilməz bir qorxu bürüyər, tam fərqli bir insan olardınız. Həyatınızı tamamilə fərqli nizamlayardınız. Ətrafınızdakı insanların bu həqiqəti göz ardı etdikləri üçün böyük bir qəflət içində olduğunu düşünər, gücünüzün çatdığı qədər axirət üçün səy göstərərdiniz. Allaha qarşı günah sayılan hər şeydən şiddətlə çəkinərdiniz. Axirət həyatınızı riskə ala biləcək ən kiçik bir söz və ya davranış qorxudan içinizi titrədər, dərhal Allaha yalvara-yalvara, ürpərərək dua edər, bağışlanma diləyərdiniz. Gördükləriniz, eşitdikləriniz bir an olsun ağlınızdan çıxmaz, öz sonunuz üçün eyni ehtimalı düşünməkdən Allaha sığınardınız.

Allahın sevgisini qazanmaq, Onun əzabından qurtarmaq üçün malınızı, canınızı, bütün enerjinizi istifadə edərdiniz. Üstəlik, bunların hamısında ölənə qədər səbirli və qərarlı olar, qarşınıza bir çətinlik çıxsa belə bu sizə çətinlik kimi görünməzdi. Kimsə sizi yolunuzdan çevirə bilməz, Allahın razılığından güzəştə getdirə bilməzdi. Hər şərt və şəraitdə, hər vəziyyətdə axirətiniz üçün edə biləcəyinizin ən çoxunu edərdiniz. İnsanların, cəmiyyətlərin nə etdikləri, necə bir həyat tərzini mənimsədikləri, hansı ideologiyaların arxasından qaçdıqları sizi heç maraqlanmazdı. Hər halınızla və hər hərəkətinizlə yalnız Allahın məmnuniyyətini qazanmağa çalışardınız. Allahın əmr və qadağanları mövzusunda son dərəcə dəqiq olduğunuz kimi insanlara da bunu izah edər, hər gördüyünüz kimsəni bu həqiqətlə xəbərdar edərdiniz. Ən böyük hədəfiniz, tək məqsədiniz Allahın dostluğunu qazanmaq olardı və özünüzü tamamilə Ona təslim edərdiniz. Quranda bildirilən, **"..., daşlardan eləsi var ki, içərisindən çaylar qaynayıb çıxar, elələri var ki, yarılar, ondan sular çıxar, elələri vardır ki, Allah qorxusundan yuvarlanıb yerə düşər..."** (Bəqərə surəsi, 74) ayəsindəki bənzətməylə vurğulanan qorxunun şiddəti sizin də üzərinizdə təcəlli edərdi.

Yaxşı, bu an cəhənnəmi görməmiş olmağınızmı sizi gərəyi kimi qorxub çəkinməkdən və buna görə yaşamaqdan saxlayan? Halbuki, Allah cəhənnəmin varlığını bir çox ayəsində xəbər verir, cəhənnəmi insanlara bütün təfərrüatlarıyla tanıdıb, ondan çəkindirdir. Qaldı ki, vaxtı gəldiyində cəhənnəmi görməyən insan qalmayacaqdır. Allah bunu qəti olaraq xəbər vermişdir. Ancaq ondan yalnız Allahdan qorxub pis əməllərdən çəkinənlər qurtarılacaq, digərləri diz üstü çökmüş bir şəkildə buraxılacaqlar:

**İçinizdən hər kəs oraya varid olacaqdır. Bu, Rəbbinin əzəldən müəyyən etdiyi qəti bir qərardır. Sonra Biz müttəqiləri oddan xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik. (Məryəm Surəsi, 71-72)**

Amma unutmayın ki, orada diz üstə çökmüş halda qaldıqdan sonra cəhənnəmi görmənin insana bir faydası olmaz. Çünki ora artıq geriyə dönüşü olmayan bir yerdir.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

### Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

### Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı  riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız

mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl

tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və

sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və

qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan

həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**